www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 aprel 2018-ci il Çərşənbə № 83 (6972) Qiymәti 60 qәpik

**Xəbər**

**Vəzifəli şəxsləri necə şantaj ediblər - reket jurnalistlərin məhkəməsində şok ifadə**

yazısı səh.14-də

**Gündəm**

**Sərkisyan arzusuna 77 səslə çatdı, İrəvanda gərginlik daha da artdı**



Ekspert Ermənistandakı hadisələrin arxasında 3 gücün olduğunu düşünür; **Putinin adamı:** "Bu proseslər ABŞ-ın..."

yazısı səh.7-də

**"Səfirlərimizi dəyişək" açıqlamasına reaksiyalar**

yazısı səh.4-də

**MHP başqanının sensasion erkən seçki açıqlaması**

yazısı səh.2-də

**Üç sabiq nazir üçün "zek köynəyi" hazırlığı**

yazısı səh.3-də

**Bayıl sürüşməsində kompensasiya davası mərhələsi - təfsilat**

yazısı səh.12-də

**Növbədənkənar parlament seçkiləri gündəmdə**

yazısı səh.7-də

**İsrail səfirliyi ilə jurnalist arasında qalmaqal - tərəflərin mövqeyi**

yazısı səh.3-də

**"Soyuq müharibə"nin küləyi Azərbaycanı da vuracaq**

yazısı səh.8-də

**Dollar ajiotajını banklar yaradır**

yazısı səh.15-də

**Rusdilli saytlara hücumun səbəbi bilindi**

yazısı səh.8-də

**Qarabağı Rusiyadan ,yoxsa Rusiya-Türkiyə cütlüyündən istəməli - mühüm gözlənti**

yazısı səh.11-də

## Ramiz Mehdiyev "seçkidən sonra nə olacaq" sualına aydınlıq gətirdi

# PREZİDENTİN 7 İLLİK "YOL XƏRİTƏSİ" AÇIQLANDI: MƏMURLAR TƏLAŞDA

PA rəhbərinin geniş məqaləsi İlham Əliyevin yeni prezidentlik müddəti üçün nəzərdə tutduğu proqramı hesab oluna bilər; **İdarəetmədə əsas tezislər isə bunlardır:** "Güclü komanda, islahatlar və maliyyə sabitliyi..."



yazısı səh.5-də

# Hökumət bu gün tam tərkibdə istefaya gedir

Konstitusiya Məhkəməsi seçkinin nəticələrini təsdiq etdi; dövlət başçısının bu gün andiçmə mərasimi olacaq; qanuna görə, prezident səlahiyyətlərini icra etməyə başladığı gün Nazirlər Kabineti istefa verməlidir

yazısı səh.6-da



*Professor Məsud Aşina:*

**"10-20 il sonra azərbaycanlılar tam başqa olacaqlar"**

yazısı səh.13-də



**"Siyasətin akademiki" - Ramiz Mehdiyevi deputatlar belə təbrik etdi**

yazısı səh.4-də



İlqar Məmmədov

**Sərdar Cəlaloğludan həbsdəki REAL sədrinə sərt ittihamlar**

yazısı səh.6-da



## Azərbaycanda qızıl hasilatı 5 dəfədən çox artıb

**Azərbaycanda 2018-ci ilin yanvar-mart ayları ərzində 1480,3 kq qızıl hasil olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5,1 dəfə çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 1 aprel 2018-ci il tarixinə hazır məhsul ehtiyatı 58,6 kq təşkil edib.**

Bu ilin birinci rübündə gümüş hasilatı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artaraq 221,2 kq-a çatıb.

Qeyd edək ki, Azərbaycanda 2017-ci il ərzində 2016-cı illə müqayisədə 3,4 dəfə çox - 6,391 ton qızıl hasil olunub.

Hazırda Azərbaycanda qızıl Daşkəsən ("AzerGold" QSC tərəfindən) və Gədəbəy (Böyük Britaniyanın "Anglo-Asian Mining" şirkəti tərəfindən) rayonlarında hasil olunur.

"Anglo-Asian Mining" Azərbaycanda 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə çərçivəsində hasilatla məşğul olur. Müqavilədə Azərbaycanın payı 51%, Britaniya şirkətinin payı 49% təşkil edir. İlk qızıl hasilatına ("Gədəbəy" yatağında) 2009-cu ildə başlanılıb.

## Buraxılış imtahanlarının nəticələri 2 il qüvvədə olacaq



**Azərbaycanda gələcəkdə ali məktəblərə qəbul zamanı buraxılış imtahanlarının nəticələrinin ən azı 2 il qüvvədə olması nəzərdə tutulur. Bunu Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.**

O qeyd edib ki, ötən il ali məktəblərə qəbul olmaq istəyən, lakin rus bölməsinin məzunlarının Azərbaycan dilindən heç bir ali məktəbə qəbul olmayan namizədlərin bu fənn üzrə olan ötənilki nəticələri builki qəbul imtahanlarında da nəzərə alınıb:

"Yəni onların nəticələri iki il qüvvədədir. Nəzərdə tutulur ki, bu ildən yox, gələcəkdə buraxılış imtahanlarının nəticələri də ən azı 2 il qüvvədə olsun. Bunun tətbiqi üçün isə vaxt lazımdır".

M.Abbaszadə onu da xatırladıb ki, hazırda 9-cu sinfi bitirə bilməyən şagirdlər üçün ayrıca buraxılış imtahanı təşkil olunur: "Əgər cari ilin məzunları üçün buraxılış imtahanları müxtəlif istiqamətlər üzrə ayrı-ayrı tarixlərdə fərqli rayonlarda keçirilirsə, əlavə olaraq əvvəlki illərin məzunları üçün də buraxılış imtahanları keçirilir".

## Türkiyədə azərbaycanlı qadın döyülərək öldürüldü

**Türkiyənin cənub-qərbində olan Dənizli vilayətinin Pamukkale rayonunda yaşayan azərbaycanlı qadının meyiti evində tapılıb. APA-nın verdiyi xəbərə görə, ötən gün səhər 33 yaşlı Türkay İsayevanın qonşuları mənzildə meyit olması barədə polisə müraciət ediblər. İki uşaq anası olan qadının döyülərək öldürüldüyü bildirilir. Ölümün səbəbinin dəqiqləşdirilməsi üçün meyit ekspertizaya göndərilib.**

Polis əməkdaşları binadakı təhlükəsizlik kamerasının görüntülərinə baxıb. Binanın sakinləri meyitin tapıldığı mənzildə çox vaxt dava-dalaş olduğunu, orada gecə klublarında işləyən qadınların yaşadığını deyiblər.

Hazırda cinayətin kim tərəfindən törədildiyi və həmin şəxsin saxlanılması istiqamətində iş başladılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Türkiyədə erkən seçkilər keçirilə bilər

## Türkiyə prezidenti: "Bu məsələni MHP sədri ilə görüşüb müzakirə edəcəyik"



**Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı partiyasının parlamentdəki fraksiyasının toplantısında sensasion bəyanat verib. O, 2019-cu ildə keçirilməsi gözlənilən prezident və parlament seçkilərinin daha əvvəlki tarixə alınmasını təklif edib.**

"Türkiyə 2019-cu il noyabrın 3-nə qədər seçkini gözləyə bilməz. İstədiyiniz seçkidirsə, "bu meydan, bu da şeytan". 2018-ci ilin avqustun 26-da, yəni Malazgirt zəfəri ilə (1271) və Böyük Hücumun (1922) ildönümləri günündə türk milləti yeni bir zəfər ruhu ilə sandığa gedib həm prezidentini, həm də parlamentini seçməklə türk və Türkiyə düşmənlərinə dərsini verəcəkdir", - deyə Baxçalı bəyan edib.

"Dövlətin birliyinə zərbə vuranlar buna peşman edilməlidir", - deyən Baxçalı çıxışını bu cümlələrlə davam edib: "Daxili və xarici qüvvələrin qərəz dolu etirazlarına rəğmən millətimiz prezident üsul-idarəsini qəbul edib. Həmin vaxt heç bir xarici təsir işə yaramayıb, millətin iradəsinə qalib gəlinməyib. Prezident üsul-idarəsi xalqın namusunun əmanətidir".

Dövlət Baxçalı həmin ilin martın 31-də keçirilməsi planlanan bələdiyyə seçkilərinin bir sonrakı prezident və parlament seçkiləri öncəsi qütbləşməni şiddətləndirəcəyini , bu səbəbdən son ikisinin daha əvvələ alınmasının doğru olacağını bildirib.

MHP sədrinin çağırışına ölkənin 1-ci şəxsindən, prezident Rəcəb Tayyib Ərdoğandan reaksiya gəlib.

Prezident "indiki anda söylənəcək bir şey yoxdur. MHP sədri Dövlət Baxçalı ilə sabah (bu gün-red) məsələni görüşüb müzakirə edəcəyəm",- deyə bildirib.



## Bakıda obyektə oyuncaq tapança ilə basqın edənlər tutuldu

**Daxili İşlər Nazirliyi Bakıda törədilmiş quldurluq hadisəsi ilə bağlı məlumat yayıb. Lent.az ttp://lent.az/nazirliyin mətbuat xidmətinə istinadən xəbər verir ki, aprelin 16-da gecə saat 03.00 radələrində paytaxtın Xətai rayonu ərazisində yerləşən yanacaqdoldurma məntəqələrindən birinə gələn iki nəfər maskalı şəxs orada operator işləyən 3 nəfəri tapançaya oxşar əşya ilə hədələyib, onlardan ümumilikdə 867 manat pul alaraq hadisə yerini tərk ediblər.**

Məlumat daxil olan kimi dərhal Bakı Şəhər Baş Polis İdarəsi və Xətai Rayon Polis İdarəsi əməkdaşlarından ibarət əməliyyat qrupu yaradılıb. İsti izlərlə həyata keçirilən birgə əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri - Həsən Mansurov və əvvəllər məhkum olunmuş Bəxtiyar Camalov saxlanılıblar. H.Mansurovun yaşadığı evə baxış zamanı oradan hadisə vaxtı istifadə etdikləri oyuncaq tapançalar və maskalar aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri və əməliyyat tədbirləri davam etdirilir.



## Liya Bayramova işdən çıxdı

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova vəzifəsindən azad edilib. Nazirliyin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova"Report"a faktı təsdiqləyərək bildirib ki, o, səhhəti ilə əlaqədar öz xahişi ilə işdən çıxıb. Hazırda onu S.Əhmədova əvəz edir.**

Liya Bayramova isə "Report"a açıqlamasında tutduğu vəzifədən getməsinin elmi fəaliyyətlə məşğul olmaq niyyəti ilə bağlı olduğunu deyib.

Qeyd edək ki, L.Bayramova 2015-ci ildən həmin vəzifədə çalışırdı.

## "SOCAR Turkey Enerji" TANAP-dan pay aldı

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki törəməsi "SOCAR Turkey Enerji A.Ş" Azərbaycan qazının Türkiyəyə və buradan Avropaya nəqli üçün inşa olunan Trans Anadolu Boru Kəməri (TANAP) layihəsində səhmdar olub.**

"Report" xəbər verir ki, bunu TANAP-ın baş direktoru Saltuk Düzyol bildirib.

Onun sözlərinə görə, "SOCAR Turkey Enerji"nin TANAP-da 7% pay alması üçün işlər bu ilin martın sonunda yekunlaşıb: "SOCAR Turkey Enerji" TANAP-da 7%-lik hissədar olub".

## Putin ABŞ-ı təcavüzdə suçladı

**"ABŞ və müttəfiqlərinin Suriyaya zərbəsi təcavüzdür. Bu, BMT nizamnaməsi daxil olmaqla, beynəlxalq hüququn pozulmasıdır".**

RİA Novosti bildirir ki, bunu Rusiya dövlət başçısı Vladimir Putin Almaniya kansleri Angela Merkellə telefon danışığı zamanı deyib.

Kremlin yaydığı məlumatda qeyd edilib ki, tərəflər Suriya və ətraf ərazilərdə vəziyyəti müzakirə ediblər. Putin Qərbin bu addımının Suriya böhranının sülh yolu ilə həlli prosesinə ciddi zərbə vurduğunu vurğulayıb.



## Meteohəssas insanlara xəbərdarlıq: bu gün güclü külək əsəcək

**Aprelin 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 6-8, gündüz 13-18, Bakıda gecə 6-8, gündüz 16-18 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında da havanın əsasən yağmursuz keçəcəyi, lakin günün birinci yarısında bəzi dağlıq rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 5-10, gündüz 19-24 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza əsasən, aprelin 18-19-da Abşeron yarımadasında atmosfer təzyiqinin enməsi fonunda arabir güclənən gilavar küləyi meteohəssas insanlarda narahatlıq yarada bilər.

## "Formula-1" ilə bağlı 17 marşrutun hərəkət sxemi dəyişdiriləcək

**Bakıda keçiriləcək "Formula-1 Azərbaycan Qran Pri" yarışları ilə əlaqədar ictimai nəqliyyatın fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə 17 marşrut xətti üzrə (1, H1, 2, 4, 5, 6, 8, 14, 18, 31, 37, 46, 61, 65, 77, 88, 124) avtobusların hərəkət sxemində dəyişiklik ediləcək.**

Bu barədə "APA-Economics"ə Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mais Ağayev məlumat verib.

Məlumata görə, 125 nömrəli marşrut xəttinin fəaliyyəti isə müvəqqəti olaraq dayandırılacaq.

"Məlumat üçün bildiririk ki, müvafiq marşrut xətləri üzrə nəzərdə tutulan dəyişikliklər 23.04.2018-ci il tarixindən etibarən tətbiq ediləcək və 01.05.2018-ci il tarixinədək qüvvədə olacaq", - deyə M.Ağayev əlavə edib.

YENİ MÜSAVAT

N 83 (6972) 18 aprel 2018

**Azərbaycanda yeni hakimiyyət komandasının formalaşmasına sayılı günlər qalıb. Bu ərəfədə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev geniş məqalə yazıb. Belə aydın olur ki, köhnə komandada olmuş və qovulmuş nazirlərlə bağlı hərəkətlilik gözlənilir.**



Ziya Məmmədov



Eldar Mahmudov



Fazil Məmmədov

# Üç sabiq nazir üçün "zek köynəyi" hazırlığı

## Ziya Məmmədov, Eldar Mahmudov və Fazil Məmmədovun başı üzərində yeni təhlükə...

PA rəhbəri yeni komanda prinsipində məhz ölkənin inkişafının əsas meyar olacağına vurğu qoyur, bu işə töhfə verməyən, o cümlədən siyasi sapmalara yol vermiş “qeyri-səmimilərin” uzaqlaşdırılacağını deyib. R.Mehdiyevə görə, hər bir məmur kadr məsələsində dövlət maraqlarına uyğun meyarları əsas götürməli və öz fəaliyyəti ilə kadr siyasətinə kölgə salmamalıdır. “Ayrı-ayrı məmurların kadrlara münasibətdə özbaşınalığı, cılız və subyektiv yanaşması nəticəsində kadr potensialının itirilməsinə imkan vermək olmaz” deyən PA rəhbəri ad çəkməsə də, bəzi ekspertlər söhbətin sabiq nazirlər - Eldar Mahmudov, Fazil Məmmədov və Ziya Məmmədovdan getdiyini iddia edirlər. Heç kimə sirr deyil ki, bu nazirlər idarəetmədə çox ciddi yanlışlara yol veriblər, bir çox hallarda peşəkar kadrları rəhbərlik etdikləri strukturlardan uzaqlaşdırıblar.

Hər 3 nazirin işdən çıxarılması səbəbləri ilə PA rəhbərinin dilə gətirdiyi səbəblər üst-üstə düşür.

Məsələn, Eldar Mahmudov Milli Təhlükəsizlik Nazirliyinə (MTN) 11 ildən bir qədər artıq rəhbərlik edib. Həmin illər ərzində MTN-də çalışan professional kadrların bir çoxu qurumdan uzaqlaşdırılıb və ya kadrlar özləri uyğun olmayan rəhbərliklə birgə işləməkdən vaz keçiblər. Peşəkar kadrların işdən çıxma səbəbləri araşdırılmayıb, onlara, sadəcə, “yaxşı yol” deyib yola salıblar. Həmin kadrlardan barələrində saxta cinayət işləri başladılanları da olub. Peşəkarların yerini isə uyğun olmayan, məhkəmə qarşısına çıxarılaraq az qala Cinayət Məcəlləsinin əksər maddələri ilə məhkum edilən “mahmudovçu” kadrlar tutmuşdu. Eldar Mahmudov öz fəaliyyəti ilə təkcə ciblərini, bank hesablarını doldurmayıb, mal-mülklərinin sayını artırmayıb. O, ümumilikdə təmsil olunduğu hakimiyyət komandasına qarşı əsasən sahibkar zümrəsində inamsızlıq yaratmışdı. MTN-də baş verənlər son nəticədə Eldar Mahmudovun vəzifəsindən qovulması, 20-dən artıq işçinin həbsi, nazirliyin isə ləğv edilməsi ilə nəticələndi. 2015-ci ilin oktyabrında MTN-də aparılan “təmizləmə” əməliyyatından Eldar Mahmudovun həbsi məsələsi gündəmə gətirilsə də, bu günə qədər məsələ həllini tapmayıb. “MTN işi” çərçivəsindən ötən ilin noyabrında Eldar Mahmudovun əmisi oğlu və köməkçisi olmuş Vüqar Mahmudov həbs edilib. Onun həbsindən sonra sabiq naziri də Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırıb saatlarla dindiriblər.3-4 gün davam edən dindirmələrdən sonra Eldar Mahmudov heç nə olmamış kimi bahalı maşınına minib və evinə gedib. Hələlik Eldar Mahmudovla bağlı məsələ çözülməmiş qalıb.

“MTN işi” başlanan ilk günlərdə paralel olaraq Vergilər Nazirliyində də araşdırmalar aparılmağa başlandı. Məlum oldu ki, Eldar Mahmudov vəzifədə olduğu illər ərzində digər nazirliklərə sıza bilib, nazirlərin bəzilərini də özünə tabe etdirməyi bacarıb. Belə nazirlərdən biri kimi Fazil Məmmədovun adı hallanırdı.

Fazil Məmmədov vergilər naziri postunda işinə daha çox “reketsayağı” yanaşırdı. Sahibkarlar onun tətbiq etdiyi vergitoplama üsullarının ağır şərtləri altında müflis duruma gətirilirdilər. Vergilər Nazirliyində dövlət maraqları Fazil Məmmədovun maraqlarından sonra gəlirdi. Vergilər naziri postunda Fazil Məmmədov qanunsuz “dinmə, ver” vergisi tətbiq edir, sahibkarlara 2-3 il əvvəlin vergisini ödətdirirdi.

Belə hallar son nəticədə Fazil Məmmədovla bağlı qəti qərarın verilməsinə səbəb oldu. O, işdən qovulandan sonra Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Vergilər Nazirliyinə gedib orada Fazil Məmmədovun fəaliyyətini tənqid etmişdi. Hələ o dövrdə Fazil Məmmədovun fəaliyyətinin hüquq-mühafizə orqanları tərəfindən araşdırılacağını, özünün isə hətta həbs oluna biləcəyini proqnozlaşdıranlar da vardı.

Ziya Məmmədovun rəhbərlik etdiyi Nəqliyyat Nazirliyindəki özbaşınalıqlar da saymaqla tükənən deyildi. Ziya Məmmədov nəqliyyat infrastrukturunu bilən peşəkar kadrlarına rəqib, düşmən gözü ilə baxırdı. Peşəkarları isə postlarında Ziya Məmmədovun qohum-əqrəbası, tanış-dostları əvəzləyirdi. Yol infrastrukturuna dövlət büdcəsindən ayrılan vəsaitlərlə bütün ölkə ərazisini asfaltla örtmək mümkün olduğu halda, Ziya Məmmədovun rəhbərlik etdiyi qurum yol adına karikatura çəkməklə məşğul idi. Təkcə Bakı-Quba yoluna vurulan və 30 il istismar müddəti qoyulan beton yolun 5-6 il sonra bombalanmış Suriya yollarına dönməsini misal çəkmək kifayətdir. Həmin yolun durumu “Ziya Məmmədov necə işləyib” sualına cavab verir. Sabiq nəqliyyat nazirinin fəaliyyəti də onun kimi hakimiyyət komandasından kənar qalan Eldar Mahmudovla Fazil Məmmədovun fəaliyyətindən fərqlənmirdi. Var-dövlət toplamaq hərisliyi dövlət maraqlarını arxada qoymuşdu, ümumilikdə fəaliyyəti xalqa qarşı yönəlmişdi. Nəqliyyat sistemi, demək olar ki, iflic duruma çatdırılmışdı.

Bundan uduzan Azərbaycan dövləti və xalqıdır. PA rəhbərinin yeni komandadan “qeyri-səmimilərin” uzaqlaşdırılacağını deməsi də diqqət çəkir. O baxımdan ki, yeni komandada bəzi nazirləri görməyə bilərik.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# İsrail səfirliyi ilə jurnalist arasında qalmaqal - tərəflərin mövqeyi



## Eynulla Fətullayev diplomatik nümayəndəliyi ittiham elədi; iddialara cavab gəldi...

**Haqqin.az və virtualaz.org saytlarının baş redaktoru Eynulla Fətullayev İsrailin Azərbaycandakı səfirliyində başına gələnlərlə bağlı yazı yazıb. E.Fətullayev bildirib ki, dünyanın çox ölkələrində İsrail səfirliyinin əməkdaşlarının davranışı, Bakıda olduğu kimi, çoxdandır ki, dillərdə dastan olub. Kobudluq və şər haqqında xoşagəlməz dastan.**

Onun yazdığına görə, dünyanın çox səfirliklərinə müraciət etsə də, Bakıda-İsrail səfirliyinin kandarında gördüklərinin nə diplomatik etiket çərçivəsinə, nə də elementar abır-həyaya, uşaqlıqdan öyrədilən adi ədəbə, insan tərbiyəsinə sığdığını vurğulayıb. O, başına gələnlərlə bağlı detallı yazıb. Öncə yazıb ki, viza üçün İsrail konsulluğuna bir neçə gün mütəmadi zəng etsə də, heç kim telefonlara cavab verməyib. Turizm firmalarındakı dostları isə ona səfirliyə getməməyini məsləhət bilib: “Səfirliyə getməməyinizi məsləhət bilirəm. Peşman olacaqsınız... Bizə 280 manat ödəyin və biz hər şeyi həll edərik; sadəcə, gedib pasportunuzu götürərsiniz”. Təəccübümü gizlədə bilmirəm: “Niyə belə baha? Axı bu, sadə məsələdir?” Tanışım istehzalı təbəssümlə deyir: “Gedin, özünüz baxın, ancaq xəbərdarlıq edirəm, peşman olacaqsınız”".

E.Fətullayev daha sonra səfirliyin binasında qarşılaşdığı kobud münasibətin detallarını da sadalayır. Məlum olur ki, jurnalistə “əllərini cibindən çıxar”, “sən karsan?”, “rədd ol burdan. Bura İsrailin ərazisidir” kimi kobud ifadələr işlədiblər. Bundan başqa, səfirlik binasının mühafizəsini həyata keçirən polislər də prosesə müdaxilə etmədən baş verənləri izləyiblər. Jurnalist bu duruma etiraz etmək üçün İsrailə, yaxşı tanıdığı və həmkarı olan keçmiş səfir İosif Şaqala zəng etdiyini yazıb: “Ölkəsinin qapısının ağzında üzləşdiyim rüsvayçılığı anladıram: ”Doğurdanmı, sizdə heç kəs anlamır ki, səfirlik - ölkənin vizit kartıdır. Və qonaq olduğun ölkədə belə etmək olmaz. İranlılar özlərini belə aparmırlar. Heç kim özünü belə aparmır". Sabiq səfir heç təəccüblənmir də. O gülür və bütün dünya səfirliklərində rəsmiyyətçilərin ənənəvi davranışı olduğunu deyərək, məni sakitləşdirməyə çalışır. Digər tanışlarıma zəng edirəm. Onlar da təəccüblənmirlər. Məlum olur ki, hətta İsraildə - mağazanın girişində, oteldə, aeroportlarda xidmətləri belə aparırlar... Çünki bu, “seçilmiş” ölkədir! Mən bu izahı



qəbul etmirəm. Və İsrailə getmək həvəsim tamamilə itir".

“Yeni Müsavat” E.Fətullayevin bu yazdıqlarına münasibət öyrənmək üçün İsrailin Azərbaycandakı səfirliyi ilə əlaqə saxlayıb. Səfirlikdən jurnalistin yazısına cavab olaraq aşağıdakılar bildirilib: “Azərbaycan və İsrail arasında həm dövlətlər, həm də insanlar səviyyəsində qarşılıqlı hörmətə əsaslanan çox möhkəm dostluq və əməkdaşlıq münasibətləri var. Son il ərzində iki ölkə arasında turistlərin sayı bir neçə dəfə artıb və artmağa davam edir. Hər gün viza almaq üçün səfirliyə çoxlu sayda insan gəlir və onların 99%-i heç vaxt göstərilən xidmətdən şikayət etməyib. Əlavə etmək istərdim ki, Haqqin.az saytında yazılanlar həqiqətə uyğundursa, bəzi turizm şirkətlərində sakinləri viza almaq üçün əlavə ödənişlər etməyə tələb edirlər. Qeyd etmək istərdim ki, viza rüsumu 44 (qırx dörd) AZN təşkil edir və heç bir artıq ödənişə ehtiyac yoxdu. Bu ödəniş bank köçürməsi vasitəsilə və tamamilə şəffaf şəkildə həyata keçirilir. Məhz buna görə səfirlik əlavə ödənişləri etməməyə çağırır. İsrail demokratik ölkədir və hər bir turist viza almaq üçün səfirliyə müraciət edə bilər və onlara bütün lazımi xidmətlər göstəriləcək. Eynulla Fətullayev da bütün Azərbaycan vətəndaşları kimi, istədiyi zaman səfirliyə viza üçün müraciət edə bilər. Qeyd edək ki, səfirlik göstərilən xidmətlərə dair bütün konstruktiv qeydlərə baxmağa hər bir zaman hazırdır".

**❑ Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

**Aprelin 17-də Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin 80 yaşı tamam oldu. Prezident İlham Əliyev yubileyi münasibətilə PA rəhbərini "Şöhrət" ordeni ilə təltif edib.**



# "Siyasətin akademiki"- Ramiz Mehdiyevi deputatlar belə təbrik etdi

## PA rəhbərinə yubiley təbriklərini "Yeni Müsavat" vasitəsilə çatdıran deputatlar nələr dedilər...

Milli Məclisin bir sıra tanınmış deputatları Ramiz Mehdiyevin doğum günündə onun haqqında fikirlərini və təbriklərini "Yeni Müsavat"a açıqlamalarında ifadə ediblər.

**Deputat Zahid Oruc** "Yeni Müsavat"a bildirdi ki, Ramiz Mehdiyev zəngin tərcümeyi-hala malikdir. O fərqli formasiyalarda çalışmasına baxmayaraq, peşəkarlığına və özünü yarada bilmək xüsusiyyətlərinə görə mənsub olduğu nəslin nümayəndələrindən hər zaman köklü surətdə fərqlənib. Ona görə də sovetlər birliyinin dağılması fonunda yaşadığı karyera itkiləri və şəxsinə yönələn zərbələri imperiyanın çöküşünün məntiqi nəticəsi sayaraq, dünyəvi hadisələrin gedişini düzgün təhlil edə və sonrakı dövrə hazırlaşmağı bacarmışdı: "Ulu öndər Heydər Əliyevin Azərbaycanı hissə-hissə yığaraq, müstəqil dövlətə çevirməsi yolunda keçmiş nomenklatura təmsilçilərindən çox az adam yeni dövrün çağırışlarına cavab verə bildi. Çünki vahid ideologiyanın və mərkəzləşmiş hakimiyyətin şinelindən çıxanların əksəriyyəti demokratik idarəçiliyin sərt rəqabətinə, üzərlərinə gələn mənafe toqquşmalarına və hələ oturuşmamış ənənələrə görə demək olar hamısı siyasi olimpin zirvəsindən enməyə məcbur oldular. Ramiz Mehdiyev özünün soyuqqanlılığı, rasionallığı, prinsipiallığı və yüksək təşkilatçılıq bacarığı ilə dünya siyasətinin patriarxı Heydər Əliyevin ən yaxın silahdaşına çevrildi.

Ötən əsrin 90-cı illərindən sonrakı hərbi toqquşmalar və dövlət çevrilişlərinə cəhdlər zamanı ölkənin birinci şəxsinin apardığı misilsiz siyasi döyüşlər, xalqla birgə həyata keçirilən xilaskarlıq tədbirləri zamanı bütün düşmən qüvvələr həm də Prezidentin siyasi komandasının zirehinə çırpılıb iflasa uğrayırdılar. O dövrün informasiya hücumlarına yenidən səthi nəzər sübut edir ki, əvvəlki hakimiyyətlərin uğursuzluğunun səbəblərindən biri də aparat sistemini zəif bəndə, intriqa yuvasına çevirmələri, eyni zamanda ictimai ruhu hiss edən elita formalaşdıra bilməmələri olub.

Ramiz Mehdiyev elmi-fəlsəfi dünyagörüşdən çıxış edərək, hər zaman siyasi məkanı fundamental ideyalar və əsərlərlə zənginləşdirib, nəhəng idarəçilik sisteminə dərin məzmun və məna verməyi bacarıb. Ona görə də dövlətin mühüm siyasi-iqtisadi qərarları, baş verən mürəkkəb dəyişikliklərin mahiyyəti haqda ən çox reaksiyalar və qızğın müzakirələr ölkə rəhbərindən sonra məhz Ramiz Mehdiyevin adı ətrafında cərəyan edir. O, zərbələri özünə götürür, böhranlı anlarda qərbliləra xas soyuqqanlılıq və şərqli müdrikliyi nümayiş etdirir, bütün bədgüman təxmin və təhlilləri dərin təcrübi-idrak dünyasından keçirərək onunla döyüşənləri ram edir və öz dəmir məntiqi ilə qalib gəlir".

Deputat qeyd etdi ki, qarşıya qoyulan məqsədə doğru gedilən yolda ardıcıllıq baxımından Ramiz Mehdiyevi "siyasətin akademiki" saymaq olar: "Yaşının zirvəsində nümayiş etdirdiyi qibtə olunacaq intizam, dəqiqlik və örnəklər onun iradi keyfiyyətlərini də üzə çıxarır və siyasi uzunömürlüyün sirləri haqda epopeyalar yazmaq istəyənlərə əvəzsiz materiallar verir.

Onun tarixi obrazı həmişə çoxları üçün müstəsna maraq kəsb edib. Bir vaxtlar sovet imperiyasının rəhbərlərindən olan Andrey Qromıko demişdi ki, o, malik olduğu sirləri açsa, dünyanın bir tərəfi əyilər. Əlbəttə, təmsil etdiyi dövlətin ağır informasiya yükünə, regional və qlobal savaş aparan dövlətlərin sərt mənafe yarışlarına bələd olan Ramiz Mehdiyevin fundamental baxışları Qromıko qədər əhəmiyyətə malikdir və öyrənilməyə layiqdir.

Onu yubileyi münasibətilə təbrik edərkən Ramiz Mehdiyevə yaratdığı "böyük dövlətçi" obrazına görə ən səmimi arzularımı bildirmək istəyirəm. Ömrü uzun olsun".

**Deputat Elman Nəsirov** isə bildirdi ki, Ramiz Mehdiyev Azərbaycanın dövlət quruculuğu prosesində çox böyük xidmətləri olan şəxsiyyətdir: "Ramiz Mehdiyev Heydər Əliyev siyasi məktəbinin ustad şagirdlərindən biridir. Hörmətli Ramiz müəllimin dövlət idarəçiliyi sahəsində çox zəngin bilik, bacarıq və təcrübəsi var. Olduqca ciddi dövlət adamıdır, hadisələri soyuq başla təhlil etmək qabiliyyətinə, peşəkarlıq keyfiyyətlərinə malikdir. Ramiz Mehdiyevin ən müstəsna xüsusiyyəti odur ki, dövlətə, dövlətçiliyə, prezidentə sədaqətli insan olub və bu gün də belədir. Heydər Əliyev kimi nəhəng şəxsiyyət Ramiz Mehdiyevə Prezident Administrasiyasının rəhbəri vəzifəsini həvalə edibsə, bu, artıq bütün suallara tam cavab verir. Hörmətli Ramiz müəllim bu gün də böyük təcrübəsini və bacarığını, elmi biliyini dövlətimizin mənafeyinə sərf edir. Hörmətli akademikin məqalələri də xüsusi vurğulanmalıdır. Onun məqalələri hər zaman proqram xarakterli olur. Fürsətdən istifadə edib sizin qəzetiniz vasitəsilə hörmətli Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik edirəm. Ona cansağlığı arzulayıram".

**Deputat Fazil Mustafa** isə Ramiz Mehdiyevi dövlət idarəetməsində təcrübəsi və elmi dünya görüşü ilə müstəsna yeri olan şəxsiyyətlərdən biri kimi xarakterizə etdi: "İndiki şəraitdə bir dövlətin sütunlarının qorunması olduqca çətin məsələdir. Çünki bir qrup super güclər arasında manevr eləyən bir dövlət modelini həmişə təsəvvürümüzə gətirməliyik. Bir-birinə zidd münasibətləri olan böyük dövlətlər arasında, eyni zamanda bölgədə xüsusi gücü olan Türkiyə kimi dövlətlə münasibətlərin qorunub saxlanması, inkişaf etdirilməsi mühiti Azərbaycan üçün vacibdir. Müəyyən dərəcədə bu balansın qorunmasında və ölkənin siyasi sisteminin formalaşmasında Ramiz Mehdiyevin xüsusi rolu olduğunu qeyd etməliyik. Həm də cənab Ramiz Mehdiyev bəzən təsəvvür olunduğu qədər mühafizəkar bir obraz deyil. Bir çox məsələlərə onun baxışı hakimiyyətdə təmsil olunan gənc insanlardan daha mütərəqqi baxışdır, elmi cəhətdən daha sağlam baxışdır. Bu baxımdan da onun dövlətin bugünkü inkişafında, mövcudluğunda kifayət qədər böyük rolu var. Çünki administrativ bir aparatın idarə olunması olduqca mühüm məsələdir. Burada müəyyən dərəcədə bütün sistemin normal işləməsi çox çətin məsələdir. Bu yükün altından qalxmaq ağır işdir. Məncə, Azərbaycanda Ramiz Mehdiyev faktoru kifayət qədər siyasətdə önəmli faktorlardan biridir. Mən də yubileyini təbrik edirəm. Hesab edirəm ki, ölkə prezidentinin ona yüksək təltifi verməsi də çox müsbət bir hadisədir".

**Deputat Tahir Kərimli** Ramiz Mehdiyevi dövlətdə strateji önəm daşıyan şəxs kimi tanıdığını dedi: "Mən Ramiz müəllimin fəaliyyətini sovet dövründən izləmişəm. O zaman Ramiz müəllim Kommunist Partiyasının rəhbərliyində faydalı fəaliyyətlə məşğul olurdu. Mən onu görkəmli alim, enerjili adam kimi tanıyırdım. O, daha sonra Yeni Azərbaycan Partiyasında fəaliyyət göstərməyə başladı. Və dövləti idarə edən şəxslərdən biri oldu. Onun ilk illərdə əleyhdarları və tərəfdarları da vardı. O, 25 il dövlətin rəhbər postunda işləməklə sübut etdi ki, nə qədər strateji önəm daşıyan bir fiqurdur və dövlət idarəçiliyində mühüm rol oynayır. Onun böyük fəlsəfi düşüncələri var. Tarixdə çox az adamlar var ki, dövlət başçısı ilə yanaşı, dövlətin idarə edilməsində əsas sima olsun və nailiyyətlər əldə etsin. Ramiz müəllim müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında böyük rol oynayıb. Mən onu təbrik edir və fəaliyyətində uğurlar arzulayıram".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Səfirlərimizi dəyişək" açıqlamasına reaksiyalar

**Deputat Asim Mollazadə aprelin 16-da keçirilən parlamentin Elm və Təhsil Komitəsinin iclasında səsləndirdiyi bəzi fikirlərlə gündəmə gəlib. O bildirib ki, Azərbaycanın səfirlikləri yenidən formalaşmalıdır.**

**Sitat:** "Təəssüflər olsun ki, informasiya müharibəsində öz hüquqlarımızı yetərincə müdafiə edə bilmirik. Yeni texnologiyaları daha da mükəmməl öyrənməliyik. Burada söhbət həm siyasi, həm də informasiya texnologiyalarından gedir".

Deputatın bu açıqlamalarına fərqli mövqelər sərgilənir. Çoxları hesab edir ki, xarici ölkələrdəki səfirlərimizin vəzifələrinin öhdəsindən layiqincə gələ bilməmələri deputatlar səviyyəsində hökuməti də ciddi narahat etməyə başlayıb. Bu baxımdan, bütünlüklə olmasa da, Azərbaycan üçün çox önəm daşıyan ölkələrdəki səfirlərimizlə bağlı müəyyən qərarların verilməsinin vacibliyi vurğulanır.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** "Yeni Müsavat"a açıqlamasında hər bir işdə problemlərin olduğunu söylədi: "Hər bir sahədə olduğu kimi, səfirliklərdə də müəyyən problemlər mövcuddur. Amma hesab edirəm ki, bu problemlər ictimaiyyət qarşısında deyil, xidməti geniş müzakirə olunmalı və problemlər öz həllini tapmalıdır. Tapşırıqlar hər zaman verilir. Xidməti tədbirlər çərçivəsində bu məsələləri müzakirə etmək daha doğrudur. Bu elə bir məsələ deyil ki, hər yerdə müzakirə edilsin. Bu barədə bu sahəyə aid mütəxəssislərin fikir söyləməsi daha doğrudur. Xarici İşlər Nazirliyinin işində təkcə bu nöqsanlar yoxdur. Mövcud olan digər nöqsanları ictimaiyyət qarşısında müzakirə etmək olar".



**Tofiq Zülfüqarov:**
"XİN-in işində təkcə bu nöqsanlar yoxdur"



**Hikmət Hacızadə:**
"Xarici ölkələrdəki səfirlərimiz yalnız oradakı hökumətlə işləyiblər"

**Azərbaycanın Rusiyadakı keçmiş səfiri Hikmət Hacızadə** səfirliklərdə dəyişikliklərin aparılmasına zərurətin olduğunu bildirdi: "Bu fikirlərlə razıyam. İndiyə qədər xarici ölkələrdəki səfirlərimiz yalnız oradakı hökumətlə işləyiblər. Məktub aparıb gətirmək və ya digər işləri görmək fəaliyyət deyil. Ölkənin gündən-günə gücü artan ictimaiyyəti ilə işləmək ənənəsi olmadı. Azərbaycan haqqında o ictimaiyyətdə məlumat yaymaq, ölkə haqqında müsbət imic yaratmaq kimi fəaliyyətləri səfirliklər göstərməlidir. Amma, təəssüflər olsun ki, hələ də bunları etmirlər".

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** dolayısı ilə deputatın fikirlərinə dəstək verdi: "Azərbaycanın xarici ölkələrdəki səfirliklərində çatışmazlıq az deyil. Ən böyük problem təşəbbüskarlığın zəif olmasıdır. Azərbaycanın xarici ölkələrdəki səfirləri daima hərəkətdə olmalı, çalışdıqları ölkədə Azərbaycana daha çox dost qazandırmağa çalışmalıdırlar. Yaxşı səfirlərimiz və diplomatlarımız var, ancaq ətalət basmış və tənbəlləşmiş səfirlərimiz və diplomatlarımız da az deyil. Onlar elə bilirlər ki, işləri ancaq sənəd imzalamaq, qonaq qəbul edib və yola salmaqdan ibarətdir. Səfirlər və diplomatlar çalışdıqları ölkədə media ilə sıx münasibətlər qurmalıdırlar, jurnalistlər arasında onların çoxlu dostları olmalıdır. Təəssüf ki, olduğum ölkələrdə səfirlərimizin xüsusi təşəbbüskarlıqları barədə ağızdolusu ifadələr eşitmirəm. Yaradıcı yanaşma yoxdur. Erməni lobbisinin xarici ölkələrdəki fəaliyyətlərindən dad döyürük, ancaq gəlin görək bizim həmin ölkələrdəki səfirliklər erməni lobbisinin və ermənipərəst qüvvələrin açıqlamalarını neytrallaşdırmaq istiqamətində hansı işlər görürlər? Hələ ki, nəticə xeyrimizə deyil".

**Xarici İşlər Nazirliyinin dəfələrlə mövqeyini almağa cəhd etsək də, mümkün olmadı. XİN-dən zənglərimizə cavab verən tapılmadı.**

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

# Ramiz Mehdiyev "seçkidən sonra nə olacaq" sualına aydınlıq gətirdi

**11 aprel seçkilərində xalqın böyük etimadını qazanaraq yenidən prezident seçilən İlham Əliyevin yaxın 7 ildə kadr və idarəetmə sistemində hansı dəyişikliklər edəcəyi böyük maraq doğurur.**



# Prezidentin 7 illik "yol xəritəsi" açıqlandı: məmurlar təlaşda

## PA rəhbərinin geniş məqaləsi İlham Əliyevin yeni prezidentlik müddəti üçün nəzərdə tutduğu proqramı hesab oluna bilər; İdarəetmədə əsas tezislər isə bunlardır: "Güclü komanda, islahatlar və maliyyə sabitliyi..."

Hələ seçkidən əvvəl keçirilən müşavirələrdə prezident ölkə idarəetməsində çevikliyi təmin etmək üçün ciddi islahatların anonsunu vermişdi. Ötən il qismən bu islahatlara start verildi, həm də idarəetmənin əsas "mühərriki" sayılan Prezident Administrasiyasında başlamaqla...

Aydın idi ki, geniş islahatlar, o cümlədən kadr dəyişiklikləri əsas etibarilə seçkidən sonrakı müddətə saxlanıb.

**Prezident Administrasiyasının (PA) rəhbəri Ramiz Mehdiyevin** "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" başlıqlı geniş məqaləsi əslində İlham Əliyevin yaxın 7 il üçün nəzərdə tutduğu "yol xəritəsi" də hesab oluna bilər.

"AzərTAc" vasitəsilə yayılan məqalədə ölkədə bütün siyasi spektri düşündürən, eləcə də Qərbdə də ciddi maraqla gözlənilən "seçkidən sonra nə olacaq" sualına aydın cavablar var.

R.Mehdiyevin açıqladığı "yol xəritəsi"ndə iki əsas məqama xüsusi diqqət yetirmək lazım gəlir.

Birincisi, hakimiyyətin idarə edilməsində vahid komanda və kadrların seçilməsi prinsipidir. PA rəhbərinin sitatına diqqət edək: "Prezident İlham Əliyev tərəfindən ölkənin inkişafı baxımından müəyyən edilmiş hədəflərə çatmaq üçün görülən işlərə peşəkar yanaşmadan başqa, həm də komanda prinsipinə ciddi riayət edilməsi tələb olunur. Komanda prinsipi heç də hər bir dövlət məmurunun eyni cür düşünməli olduğunu deyil, ölkənin inkişafının strateji istiqamətləri ilə bağlı vahid mövqe nümayiş etdirmələrini, qarşıya qoyulan məqsəd və vəzifələrin reallaşdırılması naminə bütün səylərini səfərbər etmələrini nəzərdə tutur".

R.Mehdiyevdən gətirdiyimiz iqtibasda "komanda prinsipi heç də hər bir dövlət məmurunun eyni cür düşünməli olduğu deyil" cümləsi diqqətəlayiqdir. Çünki müasir dövlət idarəetməsində "hamı mənim kimi düşünsün və ya hamı mən deyəni desin" prinsipi qəbuledilməzdir. Amma o da sirr deyil ki, bəzi hallarda "prezidentə sədaqətlilik" prinsipi adı altında məmur özbaşınalığı baş verir, "kabinet məmurları" formalaşır. Bu kimi halları prezident dəfələrlə tənqid edib, məmurları dövlətə sədaqətlə qulluq etməyə çağırıb. R.Mehdiyev yaxın günlərdə formalaşdırılacaq yeni komandada prezidentin hansı prinsipə üstünlük verəcəyini açıq mətnlə qeyd edib.

Ramiz Mehdiyev yazır ki, öz fəaliyyətini siyasi müstəvidəki konyuktur dəyişiklikləri üzərində quran, daha çox qeyri-səmimiliyi, süst və ətalətli fəaliyyəti ilə seçilən, komanda prinsipini qətiyyən gözləməyən məmurlarla Azərbaycanın inkişafı naminə müəyyən edilmiş ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik.

**R.Mehdiyevin yazdıqlarında anlaşılmayan nəsə varmı?** PA rəhbəri yeni komanda prinsipində məhz ölkənin inkişafının əsas meyar olacağına vurğu qoyur, bu işə töhfə verməyən, o cümlədən siyasi sapmalara yol vermiş "qeyri-səmimilərin" uzaqlaşdırılacağını deyir. Əks halda "ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik", deyə PA rəhbəri qeyd edir.

R.Mehdiyevin xüsusi diqqət etdiyi məsələ ölkədəki kadr potensialı ilə bağlıdır ki, PA rəhbəri prezident İlham Əliyevin çıxışından bu sitatı yada salıb: "Azərbaycanda çox güclü kadr potensialı yaranıbdır. Bu potensialı, peşəkar insanları qorumaq lazımdır. Sizə deyim ki, onlar Azərbaycanda o qədər də böyük sayda deyillər. Əlbəttə, hər bir məmura, hər bir vəzifəli şəxsə eyni gözlə baxıram. Mən ayrı-seçkilik eləmirəm və hesab edirəm, kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirirsə, əlbəttə, öz işinə davam etməlidir".

R.Mehdiyevə görə, hər bir məmur kadr məsələsində dövlət maraqlarına uyğun meyarları əsas götürməli və öz fəaliyyəti ilə kadr siyasətinə kölgə salmamalıdır. "Ayrı-ayrı məmurların kadrlara münasibətdə özbaşınalığı, cılız və subyektiv yanaşması nəticəsində kadr potensialının itirilməsinə imkan vermək olmaz" deyən PA rəhbəri ad çəkməsə də, zənnimizcə, söhbət son iki-üç ildə komandadan uzaqlaşdırılmış nazirlərdən gedə bilər. Hansılar ki, həm idarəetmədə ciddi yanlışlara yol veriblər, həm də bir çox hallarda peşəkar kadrları rəhbərlik etdikləri strukturlardan uzaqlaşdırıblar.

PA rəhbərinin üzərində dayandığı ikinci vacib məqam, əlbəttə ki, struktur islahatlardır. Administrasiya rəhbəri yazır ki, Azərbaycanda institusional islahatların mahiyyətinin, onun məqsəd və vəzifələrinin düzgün qiymətləndirilməsi struktur dəyişikliklərinin uğurla aparılmasının həlledici şərtlərindən biridir. PA rəhbəri etiraf edir ki, dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. **Sitata diqqət edək:** "Dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir".

Administrasiya rəhbəri barəsində çoxdan danışılan iqtisadi sferadakı bir-birinin təkrarlayan dövlət qurumlarının ləğv ediləcəyinin anonsunu da verib. Məqalədə deyilir ki, idarəetmə islahatları ayrı-ayrı dövlət orqanlarının əsasnamələrinə yenidən baxılmasını və onların ciddi şəkildə ekspertizadan keçirilməsini tələb edir. Belə ki, iqtisadi yönümlü dövlət orqanlarının bir çoxunun fəaliyyətində bir-birini təkrarlayan funksiyalar və vəzifələr mövcuddur. Qüvvədə olan əsasnamələrin yenidən hazırlanması iqtisadiyyatın idarə edilməsi sahəsində təkrarçılığı aradan qaldıra bilər. Dövlət orqanlarının təşkilati strukturunu vahid meyar və prinsiplərlə formalaşdırmaq məqsədilə nazirlik və komitələr, agentlik və xidmətlər üzrə yeni nümunəvi əsasnamənin hazırlanması da məqsədəuyğundur.

PA rəhbəri məqaləsində ölkənin maliyyə sisteminə **(yəni büdcəyə daxilolmalara-"Yeni Müsavat")** nəzarətlə bağlı tezisləri də xüsusi maraq doğurur. Əvvəla, ona görə ki, ötən il Vergilər Nazirliyində ciddi kadr dəyişikliyi baş verib. İkincisi, çoxdandır ki, ölkənin əsas vergi toplayıcısı olan Gömrük Komitəsinin bu nazirliyə birləşdiriləcəyi iddia olunur. R. Mehdiyevin məqaləsində öncə gözlənilən struktur islahatlarında büdcəyə daxilolmalara ciddi önəm veriləcəyinə mesajlar var.

"Müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, o, həm də iqtisadi inkişafın stimullaşdırıcı aləti kimi çıxış edir. Vergidə peşəkar və təmiz kadrlara üstünlük verilməli, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejimi yaradılmalıdır" deyən R. Mehdiyev qeyd edir ki, maliyyə nəzarəti sistemində ölkənin iqtisadi sərhədlərini qoruyan gömrük orqanlarının da xüsusi yeri var.

**Sitat:** "Mövcud qanunvericiliyə əsasən, gömrük orqanları dövlət icra hakimiyyəti sistemində hüquq-mühafizə orqanı statusuna malik olsa da, onlar daha çox vergi və valyuta nəzarəti funksiyası daşıyırlar. Bu baxımdan Dövlət Gömrük Komitəsi özünün tənzimləyici və fiskal funksiyalarını digər maliyyə nəzarəti orqanları ilə uzlaşdıraraq həyata keçirməlidir".

"Dövlət Gömrük Komitəsi özünün tənzimləyici və fiskal funksiyalarını digər maliyyə nəzarəti orqanları ilə uzlaşdıraraq həyata keçirməlidir" tezisi Dövlət Gömrük Komitəsinin Maliyyə Nazirliyinə, yaxud Vergilər Nazirliyinə birləşdiriləcəyinə dair neçə vaxtdır dolaşan iddiaların təsadüfi olmadığını göstərir.

Beləliklə, PA rəhbərinin məqaləsindən gəlinən nəticələri bu cür ümumiləşdirə bilərik:

**Birincisi,** anonsu verilən islahatlar paketi hələ seçkidən xeyli əvvəl hazırlanıb və İlham Əliyevin yaxın 7 ildə ölkənin idarəçilik sistemində ciddi dəyişiklik edəcəyini göstərir.

**İkincisi,** prezident bunları gerçəkləşdirmək üçün davamlı kadr islahatları aparmağı hədəfləyib ki, bunun üçün aydın tələblər və siyasi iradə var.

**Nəhayət, üçüncü məqam** ölkənin inkişafının əsas açar rollarında olan maliyyə sisteminə mərkəzləşmiş nəzarət sisteminin yaradılacağıdır. Büdcəyə daxilolmalara nəzarət isə Azərbaycan prezidentinin hədəflədiyi davamlı sosialyönümlü proqramların icrası, sadə dillə desək, maaş və pensiyaların hər il artırılması deməkdir...

❑ **"Yenì Müsavat"**

# "Rus dili postsovet məkanını birləşdirən sementdir"-Polad Bülbüloğlu



**"Rus dili postsovet məkanını birləşdirən sementdir. Qeyd etməliyəm ki, rus dilinin bizim ölkələrdə təsiri çox böyükdür. Konkret olaraq bizim ölkəni, Azərbaycanı göstərə bilərəm. Azərbaycanda kifayət qədər sanballı rusdilli saytlar var, onlar oxunan saytlardır. Ölkəmizdə fəaliyyət göstərən informasiya agentliklərinin rus versiyaları fəaliyyət göstərir".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya paytaxtında keçirilən Rusdilli Yayımçıların Beynəlxalq Forumunda çıxış edən Azərbaycanın Rusiyadakı səfiri, MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun sədri Polad Bülbüloğlu bildirib.

Azərbaycanda rus dilinin tədrisinin səviyyəsinin yüksək olduğunu vurğulayan diplomat ölkədə 300-dən çox orta məktəbdə rus dilinin tədris olunduğunu söyləyib: "Praktiki olaraq bütün ali məktəblərin rusdilli bölməsi var. Bundan başqa, Bakı Slavyan Universiteti, Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları fəaliyyət göstərir. Ona görə də Azərbaycanda rusdilli məkanın olduqca geniş seqmenti və böyük təsiri var. Mənə elə gəlir ki, postsovet ölkələri rus dilinin təbliğinin gücləndirilməsində dəstəyə ehtiyac duyur. Gənc nəslin rus dilinə marağını artırmaq lazımdır ki, onlar bu dili öyrənsinlər. Bu, çox ciddi problemdir".

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

# Hökumət bu gün istefaya gedir

## Konstitusiya Məhkəməsi seçkinin nəticələrini təsdiq etdi; bu gün prezident İlham Əliyev and içir

**Aprelin 17-də Konstitusiya Məhkəməsinin Plenumu aprelin 11-də keçirilmiş prezident seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının protokolunun təsdiq edilməsi və seçkilərin nəticələri ilə bağlı iclas keçirib.**

İclasa Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev sədrlik edib. İclasda məruzəçi hakimlərdən Sona Salmanova və Rafael Qvaladze çıxış ediblər.

S.Salmanova bildirib ki, Mərkəzi Seçki Komissiyası seçkilərin nəticələrinə dair bütün məntəqələrdən daxil olmuş məlumatları ümumiləşdirərək seçki protokolunun təsdiq olunması üçün müvafiq sənədlərlə birgə Konstitusiya Məhkəməsinə təqdim edib.

R.Qvaladze isə seçkilərin qanunvericiliyə uyğun keçirildiyini bildirib və seçkilərin nəticələrinə dair protokola əsasən, İlham Heydər oğlu Əliyevin səslərin çox hissəsini toplayaraq qalib olduğunu bildirib.

İclasda seçki prosesi barədə danışan MSK sədri Məzahir Pənahov bildirib ki, seçkilər 125 seçki dairəsi üzrə 5641 seçki məntəqəsində keçirilib. M.Pənahov namizədlərə yaradılmış şəraitdən danışıb, həmçinin ödənişsiz efir vaxtının, qəzetlərdə yer ayrılmasını qeyd edib: "Seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsi üçün Mərkəzi Seçki Komissiyası tərəfindən kifayət qədər yerli və xarici müşahidəçi qeydə alınıb, habelə məntəqələrin 20 faizində veb-kameralar quraşdırılıb".

MSK sədri deyib ki, seçkilərdə 8 namizəd qeydə alınıb və seçki prosesi zamanı bütün namizədlər üçün bərabər şərait yaradılıb.





Sonra M. Pənahov Konstitusiya Məhkəməsinin hakimlərinin suallarını cavablandırıb. Daha sonra Konstitusiya Məhkəməsi 11 aprel 2018-ci ildə keçirilmiş prezident seçkilərinin nəticəsini təsdiq edib. Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun qərarını elan edib. Qərara əsasən, Konstitusiya Məhkəməsi prezident seçkilərinin nəticələrini təsdiqləyib.

Konstitusiya Məhkəməsinin qərarı ilə MSK-nın yekun protokoluna əsasən, İlham Əliyev 86,02 faiz səslə prezident seçkilərində qalib gəlib.

Sonrakı yerlər aşağıdakı kimi bölüşdürülüb:

Öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş Zahid Oruc - 3,12%;

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu - 3,03%;

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev - 3,02%;

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev - 1,52%;

Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə - 1,38%;

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev - 1,17%;

"Cəbhəçilərin təşəbbüs qrupu" tərəfindən namizədliyi irəli sürülmüş Razi Nurullayev - 0,74%.

Ölkə qanunvericiliyinə görə, Konstitusiya Məhkəməsi seçkinin yekunlarını rəsmən elan etdikdən 3 gün sonra prezident seçilmiş şəxs Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməlidir. And içdiyi gündən Azərbaycan Respublikasının prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

Azərbaycan Konstitusiyasının 116-cı maddəsinə görə, yeni seçilmiş Azərbaycan Respublikasının prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Nazirlər Kabineti istefa verməlidir.

Prezident İlham Əliyevin seçkidən az öncə qarşıdakı dövrdə islahatların davam edəcəyini bəyan etməsi, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" başlıqlı geniş məqaləsində "Öz fəaliyyətini siyasi müstəvidəki konyunktur dəyişikliklər üzərində quran, daha çox qeyri-səmimiliyi, süst və ətalətli fəaliyyəti ilə seçilən, komanda prinsipini qətiyyən gözləməyən məmurlarla Azərbaycanın inkişafı naminə müəyyən edilmiş ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik" fikirlərinin yer alması onu deməyə əsas verir ki, yeni hökumətin formalaşmasında yeniliklər olacaq. Bəzi nazirlər yeni hökumətin tərkibində yer almayacaqlar.

Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədov andiçmə mərasiminin bu gün olacağını bildirib.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "İqtidarın əsas alternativi kimdir?" polemikası başladı

## Sərdar Cəlaloğludan İlqar Məmmədova sərt ittihamlar

**Aprelin 16-da "Yeni Müsavat"ın canlı yayımının qonağı olan ictimai fəal Bəxtiyar Hacıyev hakimiyyətə əsas müxalif rəqib kimi REAL Partiyasının sədri İlqar Məmmədovun adını çəkib. İctimai fəal bildirib ki, Azərbaycan hökumətinin əsas rəqibi hazırda həbsdədir. B.Hacıyev məhz bu səbəbdən vicdan məhbusunun azadlığa buraxılmadığını bildirib. Bəs, digər müxalifət funksionerləri İ.Məmmədovu iqtidara əsas rəqib görürmü?**

**ADP sədri Sərdar Cəlaloğlu** ictimai fəalın fikirləri ilə qətiyyən razı deyil. ADP sədri İ.Məmmədovun ünvanına ağır ittihamlar da səsləndirdi: "Allah qapısını açsın. Məhbus barədə nələrsə demək bəzən çətindir. Amma onu deyə bilərəm ki, İlqar Məmmədov nəinki Azərbaycan iqtidarına, mövcud olan partiyaların heç birinə rəqib deyil. Bir qüvvənin lideri olması üçün öncəliklə həmin qüvvənin liderinin şəxsi keyfiyyətləri, qabiliyyəti olmalıdır. Ardınca da həmin qüvvənin gücü, potensialı gəlir. Onu hamımız yaxşı tanıyırıq. Bir müddət Etibar Məmmədovun yanında oldu. Orada da Əli Əliyev və digər şəxslərlə müqayisədə söz sahibi olmayan, arxa planda olan şəxs olub. AMİP-in özündə belə İlqar Məmmədov tanınmırdı. Bu partiyadan çıxandan sonra Amerika səfirliyində işlədi. Ondan sonra bir QHT yaratdı və orada da Azərbaycana qarşı çox xəyanətkar bir sənədə qol çəkib. Mən, İsa Qəmbər, Əli Kərimli və Pənah Hüseyn Avropa Birliyinin nümayəndələri ilə görüşəndə dedik ki, bu birliyə inteqrasiyamızda əsas hədəflərdən biri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll olunmasıdır. Onlar bizə həmin vaxt dedilər ki, siz heç vaxt Avropa Birliyi çərçivəsində Dağlıq Qarabağ məsələsini qaldıra bilməzsiniz. Səbəbini soruşduqda şok yaradacaq bu cavabı verdilər ki, siz bizə sənəd vermisiniz və bir şərtlə Avropa Birliyinə üzvlüyə razısınız ki, heç vaxt Dağlıq Qarabağla bağlı məsələ qaldırmayacaqsınız. Bir-birimizin üzünə baxdıq. Açığı şübhələndim ki, İsa Qəmbər, yaxud Əli Kərimli sənəd imzalayıb. Belə bir sənədə qol çəkmədiyimizi deyəndən sonra bildirdilər ki, sizin bir birliyiniz var, ora 29 təşkilat daxildir, sədri də İlqar Məmmədovdur, o bizə belə bir sənəd verib. Sonralar İlqar Məmmədovun özü də bunu təsdiqlədi, yəni belə bir sənədə qol çəkdiyini. İqtidara alternativ deyilən İlqar Məmmədov bu qədər irəli gedib. Onun təşkilatının 200-300 nəfər üzvü olar, ya olmaz. Əgər həbsxanada yatmaq iqtidara əsas alternativ olmaq deməkdirsə, İsa Qəmbər, Əli Kərimli, İqbal Ağazadə, Pənah Hüseyn, Arif Hacılı və mən də həbsxana həyatı yaşamışam, hətta elələri var ki, 2-3 dəfə həbsxanaya düşüblər. Onun qətiyyən iqtidara alternativliyi yoxdur. Şəxsi keyfiyyətləri ona ölkənin birinci şəxsi olmağa imkan vermir. Bu gün ölkənin bütün müxalifəti bir yerdə olsa belə, ölkəni idarə etmək üçün hakimiyyətə alternativlik ortaya qoya bilməz. Bu, çılpaq bir gerçəklikdir. Bəxtiyar kimi şəxslərin belə fikirlər səsləndirmələri boş şeylərdir. Onu azad etdirmək üçün belə fikirlər də önə sürə bilərlər. Yeni Avropada bu fikri formalaşdırmaq istəyərlər ki, İlqar hakimiyyətə əsas alternativ görünsün, azadlığını tələb edənlər artsınlar".




**AĞ Partiya başqanı Tural Abbaslı** bunları dedi: "Ola bilsin ki, hazırda həbsdə olan İlqar Məmmədov kimin üçünsə lider olsun və ümidlərini ona bağlasınlar. Hətta bəziləri üçün o müxalifətin ən şanslı namizədi kimi də ola bilər. Bunu da təbii qəbul edirəm. Mənim üçünsə İlqar Məmmədov həbsdə olan partiya sədridir. Sözün düzü, digər siyasi fiqurları analiz etmək və bu barədə düşünmək üçün nə vaxtım var, nə də həvəsim. Hər kəs öz işinə baxsa və öz mübarizəsiylə məşğul olsa yaxşı olar. Çox ümid edirəm ki, may ayında böyük bir əfv fərmanı verilər və bu gün həbsdə olan 140-a yaxın siyasi məhbus azad olar. O zaman İlqar Məmmədov, Seymur Həzi, Asif Yusifli və digərləri azadlıqda öz siyasi fəaliyyətlərini bərpa edərlər. Artıq o zaman hər kəsin siyasi çəkisi və bacarığı real şəkildə ortalıqda olacaq".

**AMİP katibi Əli Orucov** keçmiş partiyadaşının alternativlik məsələsi barədə bunları düşünür: "Bəxtiyar Hacıyev belə düşünürsə, buna qıcıqla reaksiya verməyi, yaxud da təpki göstərməyi doğru saymıram. Azərbaycan siyasi arenasında hərənin öz yeri və çəkisi var. İlqar Məmmədov da siyasi cəhətdən özünü təsdiq etmiş və müəyyən təcrübə qazanmış siyasilərimizdəndir. Heç kəs İlham Əliyevin əsas rəqibinin kim olduğunu belə əminliklə söyləyə bilməz. Çünki bunu ölçə biləcək ölçü vahidi yoxdur. Demokratik cəmiyyətlərdə hər bir siyasi liderin və siyasi qüvvənin gücünü, potensialını seçkilər müəyyənləşdirir. Azərbaycanda indiyədək ədalətli və demokratik seçkilər keçirilmədiyindən bunu müəyyənləşdirmək mümkün olmur. Ona görə də yanaşma obyektiv gerçəkliyi deyil, subyektiv mülahizələri əks etdirir. Digər tərəfdən, siyasi liderlərin nüfuzu və gücü hər dövr üçün eyni qalmır. Onun da yüksəlmə və enmə dövrləri olur. Cəmiyyət həmişə dinamik olduğundan yeniliyə, dəyişikliyə daha çox can atır və tələbat da dəyişir. O zaman siyasətçinin gücü və çevikliyi bu dəyişikliyə, tələbata necə cavab verməsindən asılı olur. Bütün bunlar Azərbaycanda olmadığından hakimiyyətin rəqibinin kim olduğu da məchuldur".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

**11 apreldə keçirilən növbədənkənar prezident seçkisindən sonra növbədənkənar parlament seçkilərinin də keçiriləcəyi barədə iddialar var. 2020-ci ilin noyabrında keçirilməli olan seçkilərin ya bu ilin payızında, ya da gələn il baş tutacağı bildirilir.**

# Növbədənkənar parlament seçkiləri gündəmdə

## Siyasətçilər konkret məlumata malik olmasalar da, bunu istisna etmirlər

"Yeni Müsavat" 2016-cı ilin sentyabrında keçirilən referendumdan sonra redaksiyamıza daxil olan mötəbər mənbələrin məlumatı əsasında dəfələrlə ölkədə növbədənkənar prezident və parlament seçkilərinin olacağı barədə yazılar dərc edib. Artıq bunlardan biri reallaşıb. İndi də redaksiyamıza yaxın zamanlarda parlament seçkilərinin keçiriləcəyi ilə bağlı məlumat daxil olub. Bunu deyən mənbə bildirir ki, bu ilin sonunda qanunverici orqana seçkilər keçirilə bilər. Mövcud şəraitdə də hakimiyyətin parlament seçkilərini 2 il tezləşdirməkdə maraqlı olduğu vurğulanır.




**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** bu iddialarla bağlı danışıb. Deputat deyir ki, tezliklə Azərbaycanda seçkilər gözlənilmir: "Açığı, bu ilin payızında parlament seçkilərinin keçirilməsinə ciddi əsasların olduğunu görmürəm. Hər hansı bir hadisə gümanlar üzərində reallaşmır. Bu ola da bilər, yəni bunu istisna etmirəm. Ola bilsin ki, seçkilər üçün görmədiyim əsaslar siyasi dairələrdə daha ciddi şəkildə arqumentləşdirilib, ortalığa gələ və seçkilər keçirilə bilər. Bütün bunlar mümkünsüz deyil. Lakin indiki halda buna ehtiyac görmürəm. Mətbuatda bunları oxuyandan sonra xeyli düşündüm, özüm üçün araşdırmalar apardım və bu nəticələrə gəldim. Nəzərə alaq ki, deputat olmaq istəyənlərin sayı daha çoxdur və parlament seçkiləri cəmiyyətin diqqətini zəbt edir. Bu da diqqəti işğal olunmuş ərazilərimizdən müəyyən qədər yayınmasına səbəb ola bilər. Prezident seçkilərindən sonra bütün diqqətimizi işğal altındakı torpaqlarımıza yönəltməliyik. Bunun üçün artıq əlverişli situasiya da yetişməkdədir".

Deputat seçkilərin 2019-cu ildə ola biləcəyi barədə də iddialara toxundu: "Prezident seçkiləri ilə parlamenti eyniləşdirmək heç bir halda olmaz. Azərbaycanda prezident böyük səlahiyyətlərə malikdir. Ölkənin taleyüklü məsələlərinin həlli prezidentin üzərindədir. Vaxtilə sizin qəzetə də vermiş olduğum açıqlamalarımın yenə də üzərində qalıram ki, prezident seçkilərinin vaxtından əvvəl keçirilməsinin iki mühüm səbəbi oldu. Birincisi, anti-Azərbaycan qüvvələrinin məkrli planlarının payız üçün hazırlanması gözlənilirdi, bu, geniş xarakter daşıya bilərdi, buna yetərincə vaxt da var idi. Bunu reallaşdırmaq həmin qüvvələr üçün o qədər çətin deyildi. Seçkilərin önə çəkilməsi həmin planları alt-üst etdi. Nəticədə həmin qüvvələr başqa planı həyata keçirməyə çalışdılar və əxlaqsız insanların söyüş kampaniyasına start verildi. İkinci vacib məsələ, qənaətimə görə, Rusiya və Ermənistanda hakimiyyətin formalaşması ilə bağlı idi. Bunun üçün Azərbaycanda da erkən seçkilərə böyük ehtiyac yaranmışdı. Biz noyabra qədər diqqətimizi prezident seçkilərinə yönəldə bilməzdik. Nə bu il, nə də gələn ildə parlament seçkilərinin keçirilməsi perspektivlərini görmürəm".

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, erkən seçkilər Azərbaycan siyasi leksikonu üçün artıq doğma ifadəyə çevrilib: "Bir neçə gün əvvəl keçirilən növbədənkənar prezident seçkiləri bir daha göstərdi ki, məqsədəuyğunluğu olduqda belə seçkilər keçirilə bilər. İnkişaf etmiş dövlətlərdə də bu praktika tətbiq edilir. Misal üçün, aprelin 17-də Türkiyə parlamentində əsas fraksiyalardan birinin-MHP lideri Dövlət Baxçalı 2019-cu ildə gözlənilən prezident seçkilərini 4 aydan sonra-avqust ayında keçirilməsi təşəbbüsünü qaldırıb. İstisna deyil ki, AKP iqtidarı da bu təşəbbüsə dəstək versin. Baxçalı qarşıdakı seçkilərdə Ərdoğanı dəstəkləmək öhdəliyini üzərinə götürüb. Çox güman ki, qardaş Türkiyə erkən seçki dönəminə daxil olacaq. Başqa dövlətlərdə də buna bənzər addımlar atılır. Bizdə də erkən parlament seçkilərinin keçirilməsi haqda söhbətlər dolaşmağa başlayıb. Bu payızda belə kampaniyanın olacağı barədə təsdiqlənməmiş məlumatlar da var. Mən belə məsələləri cəmiyyətlə bölüşməyin tərəfdarı olanlardanam. Hesab edirəm ki, ictimaiyyət siyasi proseslərdən agah olmalıdır. Konkret fikir bildirmək çətin olsa da, növbədənkənar seçkilərin keçirilməsi istisna deyil. 2020-ci ilə seçkilər qalmaya da bilər. Bunun üçün isə hakimiyyətdaxili güc dəngəsinin hansı tərəfə əyiləcəyini gözləmək lazımdır. Düşünürəm ki, yaxın 2 ayda hadisələrə qiymət vermək mümkün olacaq. Müxalifətə gəldikdə isə onu deyə bilərəm ki, boykot, imtina, özünü izolyasiya produktiv xətt deyil. Bu yol hakimiyyətə divident, sərbəst siyasi meydan verir. İndidən parlament seçkilərinin hazırlıq işləri başlamalıdır. Mümkün olan qədər koordinasiya olunan siyasət seçilməlidir. Namizədləri vahid müxalifət namizədi kimi indidən tədricən razılaşdırmaq yolu tutulmalıdır. Təkəbbür, yanlış hikkə ziyanlı taktiki seçimdir. Biz belə düşünürük".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sərkisyan arzusuna 77 səslə çatdı, İrəvanda gərginlik daha da artdı

## Ekspert Ermənistandakı hadisələrin arxasında 3 gücün olduğunu düşünür; **Putinin adamı:** "Bu proseslərin arxasında ABŞ dayanır"

**Ermənistanın keçmiş prezidenti Serj Sərkisyan ölkənin baş naziri seçilib. APA-nın "news.am"a istinadən verdiyi məlumata görə, səsvermə Ermənistan parlamentində keçirilən xüsusi iclas zamanı baş tutub. Açıq səsvermə zamanı onun lehinə 77, əleyhinə 17 deputat səs verib.**



Serj Sərkisyanın baş nazir seçilməsinə etiraz olaraq İrəvanda keçirilən aksiyanın rəhbəri, müxalif deputat Nikol Paşinyan Ermənistanda "məxməri inqilab"ın başladığını elan edib.

Erməni bildirir ki, mitinqin keçirildiyi Fransa meydanına minlərlə aksiyaçı toplaşıb. N.Paşinyan tərəfdarlarını gecə İrəvanın Azadlıq meydanına toplaşmağa çağırıb. O, bildirib ki, tərəfdarları dövlət orqanlarının fəaliyyətini iflic etmək niyyətindədir: "Ölkədə inqilabi vəziyyət yaranıb və mən qeyri-zorakı xalq "məxməri inqilab"ının başladığını elan edirəm. Dövlət müəssisələrinə girin, oturaq aksiyalar keçirin, küçələri bağlayın. Nazirliklərin girişini qapadın, onların işinə mane olun. Binalara daxil olun, amma heç nəyi dağıtmayın. Nəqliyyatın işinə mane olun. Eyni zamanda səfirliklərin binalarını da mühasirəyə alın". Bütün bunlar Ermənistan parlamentinin sabiq prezident Serj Sərkisyanın baş nazir seçilməsinə həsr olunmuş xüsusi iclasının keçirildiyi saatlarda baş verib.

Ermənistan paytaxtının küçələrinə zirehli texnikanın çıxarılmasına, polisin dəfələrlə aksiyaçılara qarşı zorakılıq tətbiq etməsinə baxmayaraq, müxalifət geri çəkilmək niyyətində deyil. Paşinyan da deyib ki, tərəfdarları aksiyaları dayandırmağa hazırlaşmır. Hətta o, polisin yazılı xəbərdarlığını tərəfdarları qarşısında nümayişkaranə şəkildə cırıb atıb. Onun tərəfdarları Ermənistan Milli Məclisinin deputatlarının evlərini mühasirəyə alaraq deputatların evdən çıxmasını əngəlləməyə, beləliklə də, səsverməni pozmağa çalışacaqlarını deyiblər. Bütün bunlar isə ondan xəbər verir ki, Ermənistanda başlanan etirazlar xaricdən idarə olunur.

"Düşünürəm ki, Rusiya ilə ABŞ arasında çoxdan bəri davam edən Ermənistan uğrunda mübarizə başlayıb. Amma Rusiya Ermənistandan Rusiyaya yaxınlaşmağa imkan verməz. Çünki Ermənistana cənub qapısıdır və ən strateji nöqtələrindən biridir. Çox təəssüf edirəm ki, bizim bu proseslərə təsir etmək imkanımız yoxdur. Əslində burada yaranan situasiya bir sıra problemləri öz xeyrimizə dəyişdirmək üçün bizə imkan verərdi".

Bu fikirləri Ermənistan daxilindəki prosesləri ciddi şəkildə izləyən **ermənişünas alim Qafar Çaxmaqlı** "Yeni Müsavat"a söylədi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə Ermənistandakı hadisələrin arxasında 3 gücün olduğunu düşünür: "Birinci güc hakimiyyətdən narazı olan qüvvələrin radikal hissəsidir ki, qətl, həbs və işdən çıxarılma təhlükəsi qarşısında belə hakimiyyətlə üz-üzə gəlməkdən qorxmur. İkinci güc isə Ermənistanın indiki hakimiyyətindən narazı olan erməni lobbisinin bir hissəsidir. Həmin erməni lobbisi nə qədər türk düşməni olsa da, Ermənistanın uçuruma doğru sürətlə irəlilədiyini görür və buna qarşı yerli müxalifətin bir hissəsinə dəstəyini artırır. Ermənistandakı hadisələrdə üçüncü qüvvənin olduğu da mümkündür. Bu da xarici ölkələrdə hazırlanan ssenarilərdir".

E.Şahinoğlu hesab edir ki, Ermənistanda Rusiya ilə Qərbin maraqları kəsişir: "Rusiya Ermənistanı quberniyası kimi idarə etmək istəyir və Serj Sərkisyan buna mane olmur, ola da bilməz. Rusiyadan üz çevirməyə onun gücü çatmaz, istəyi də yoxdur. Deməli, Qərbdəki müəyyən mərkəzlərin Serj Sərkisyanın zəifləməsində marağı ola bilər. Həmin mərkəzlərin məqsədi Ermənistanı Rusiyanın nəzarətindən qoparmaqdır. Bunun üçün isə Serj Sərkisyanın hakimiyyətini zəifləmək lazımdır. Çünki nə edilsə, indi ediləcək. Serj Sərkisyan baş nazir seçiləndən sonra onu devirmək çətin olacaq. Müxalifət elektoratı hərəkətə gətirən Paşinyan da bunu anlayır, ona görə həm xalqdan, həm də Qərbdən dəstək gözləyir". Ekspertin sözlərinə görə, N.Paşinyan əlindən gələni edəcək ki, Serj Sərkisyan baş nazir seçilməsin: "Ancaq bu alınmasa Paşinyanı həbs təhlükəsi gözləyir. Paşinyan riskə gedib". Ermənistan S.Sərkisyanın hakimiyyətinin son illərində Qərbə müəyyən reveranslar etdi, Avropa İttifaqı ilə saziş imzaladı, NATO-nun hərbi təlimlərinə qatıldı, həmçinin Sərkisyan Putini satdı, üstəlik, İrəvanda Rusiyaya qarşı aksiyalar oldu. Ola bilərmi S.Sərkisyan bunların cəzasını çəkir? E.Şahinoğlu: "Məncə, Sərkisyan Putini satmayıb, Moskvanın razılığı olmadan addım ata bilməz".

"İrəvanda baş verənlər siyasi böhrandır. Bu, Ermənistan "Maydanı"na cəhddir və bu proseslərin arxasında ABŞ dayanır".

Publika.az ttp://publika.az/ xəbər verir ki, bu barədə Rusiya prezidentinin xüsusi nümayəndəsi, politoloq Sergey Markov Feysbuk səhifəsində yazıb. Onun sözlərinə görə, hadisələr ABŞ tərəfindən maliyyələşdirilən 2 min fəal və sosial şəbəkələrdəki 2,5 min istifadəçi tərəfindən həyata keçirilir: "Proseslərin arxasında ABŞ-la yanaşı, qismən Avropa İttifaqı da var. Bu rəqəmlər kiçik Ermənistan üçün böyük rəqəmdir". Putinin nümayəndəsi qeyd edib ki, Sərkisyan Yanukoviç qədər məşhur olmasa da, ondan daha sərt addımlar atacaq. "Sərkisyanın cavabı sərt olacaq. Ermənistanda etiraz edənlərin əsas ideologiyası demokratiya ilə yanaşı, Rusiyaya qarşı mübarizədir. Onlar həmçinin hakimiyyəti tutmuş "Qarabağ klanı"na qarşı mübarizə aparırlar. Lakin proseslər kənardan idarə olunur", - deyə o iddia edib.

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**



# 4-cü hakimiyyətin gücü

Zamin HACI
zaminhaci@gmail.com

"Qəzet tarixin saniyə əqrəbidir"
*(Artur Şopenhauer)*

**Bakı metrosunda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə guya fleşmob düzəltmişdilər, videosuna baxanda elə zənn edirdin bu, 11-ci qırmızı ordunun ölkəmizə girişi münasibətilə hazırlanmışdır. Çünki hər şey saxta idi. Qatardakı "sərnişinlərdən" tutmuş, ifa edilən mətnlərə qədər. Ən absurdu isə fleşmob boyunca... Səməd Vurğunun şeirlərinin səslənməsi idi. O Vurğun ki, Rəsulzadəni "şarlatan" adlandırıb, milli hökumətin, Müsavatın arxasıyca təhqirlər yağdırmışdır. Əhməd Cavad, Almas İldırım, Əmin Abid Gültəkin kimi istiqlal şairləri dura-dura cümhuriyyəti Kommunist Partiyasının ən məşhur mədhiyyəçisi ilə yad etmək ancaq metro idarəsinin ağlına gələ bilərdi. Yerin altında çox qalırlar, gün işığında gedən proseslər onlara gec çatır.**

Yeri gəlmişkən, Almas İldırımın adını çəkdim, təhsil sistemimizdə olmuş bir tragikomik (deyəsən, artıq tragik sayılmaz) hadisəni burda yazım, baxın görün bizi hansı uçuruma yuvarlayıblar, yaxın yüzillikdə ordan necə çıxacağıq. Bakı məktəblərindən birində "Ədəbiyyat" fənnini tədris edən müəllim Almas İldırımın qarasıyca danışıb, uşaqlara deyirmiş ki, bu kafiri nahaq yerə dərsliklərə salıblar. Səbəb isə Almas İldırımın məşhur "Əsir Azərbaycan" şeirindəki bu misralar olmuşdur:

**"Könlümə tək Kəbə etdim səni mən,**
**Sənsiz neynim qürbət eldə günü mən,**
**Sənsiz neynim Allahı mən, dini mən?!**
**Azərbaycan, mənim tacım, taxtım oy!**
**Oyanmazmı kor olası baxtım oy?!"**

Müəllim xüsusən üçüncü sətiri oxuyanda "əstəgfürullah" deyirmiş. Ümid edirəm, belə müəllimlərə dövlət səviyyəsində şərait yaradılar, gedib Suriyada dərs deyərlər.

İndi isə, fransızlar demişkən, "revenons a nos moutons". Yəni qayıdaq öz qoyunlarımızın yanına. Bu gün əslində nədən yazacaqdım, o temanın. Mətbuatın gücünün artması olduqca sevindirici haldır, bundan bəhs etmək fikrində idim, metro idarəsi qatarı düz köşənin içinə sürməsəydi...

Gücümüz isə doğrudan inanılmazdır. Yox, mən təkcə ölkədə 50 min gündəlik qəzetin, 60 min ördəyin-qazın..., üzr istəyirəm, 600 həftəlik, 700 aylıq, 800 kvartallıq, 900 illik jurnalın çap olunmasını, efirdə basabas salmış yüzlərlə müstəqil telekanalizasiyanın varlığını nəzərdə tutmuram. O cümlədən internetin bizdə ABŞ-dakından da azad olmasını demirəm. Bunlar məlum faktlardır, şübhə edənin gözü çıxsın - spiker müavini Valeh müəllimin unudulmaz qarğış layihəsində deyilən kimi. Sadəcə, biz artıq 4-cü hakimiyyət olmuşuq, xəbərimiz yoxdur.

Misal üçün, görürsən, hansısa deputat ölür, onun həmkarları açıqlama verirlər: "Rəhmətliyi jurnalistlər öldürdü". Yaxud, başqa deputat anası və qardaşlarını lütləyib buraxmaq istəyir, ancaq buna imkan tapmır, deyir: "Xahiş edirəm, mətbuat məndən əl çəksin". Biri deyir, məni söyüş yiyəsi eləmisiniz, o biri deyir, villamı güllə peyəsinə döndərmisiniz (Qafiyə üçün yazdım, mənasız cümlədir). AYB sədri Anar müəllimin poetik yaradıcılığından ilhamlanaraq şeirə gəlmək istəyirəm. Məsələn, Anar müəllimin nar haqda maraqlı şeirləri vardır: "Müstəqil dövlətimin, Yurdumun var bayramı. Dünyaya səs salıbdır, Göyçayın nar bayramı. Əzizim, vara gəlin, Bağlara bara gəlin. Anar deyir payızda, Göyçaya nara gəlin".

Jurnalistikanın gücü qüdrətli sədrimiz Əflatun müəllimin açıqlamalarından da aydın görünür. Cəmiyyətdə, kainatda, qalaktikamızda elə bir hadisə yoxdur ki, hörmətli Amaşov ona münasibət bildirməsin. İstər Ağsu aşırımında bir dovşanı KAMAZ vursun, istərsə Qəbələdə ərəb turist qarın altında qalsın, yaxud seçkilərdə ATƏT müşahidəçiləri dövlətçiliyimiz əleyhinə çıxsınlar, nə bilim, Trampın Bəşər Əsədə atdığı raketin biri partlamasın - bütün bunlara Əflatun müəllim öz dəyərli şərhini mütləq verməlidir. Çünki planetdə hər kəsin bu şərhlərə, münasibətlərə ehtiyacı vardır.

Seçkini faktiki biz jurnalistlər müəllimlərlə əlbir düzüb-qoşuruq. Nazirləri işdən çıxarırıq. Hacıbala müəllimi son 18 ildə 81 dəfə işdən çıxarmışıq, ancaq yenə fırlanıb, gedib oturur idarədə (bu cümlədəki zerkalnı nömrəni satıram, əlaqə saxlayın). Qarabağı azad eləməkdən tutmuş müxalifətçiliyə, pambıq becərməkdən pomidor əkməyə qədər hər iş biz jurnalistlərin boynuna düşmüşdür.

Dövlətçilik imkan versə, bəlkə qəzet də çıxararıq.

# "Soyuq müharibə"nin küləyi Azərbaycanı da vuracaq

## Toğrul İsmayıl: "Rusiya-Qərb qarşıdurması dərinləşsə, Qərbin və Rusiyanın Bakıdan seçim tələbi gündəmə gələr bilər"

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov BBC-yə müsahibəsində Qərb və Rusiyanın münasibətlərinin "soyuq savaş" dövründən daha pis olduğunu deyib. Rusiya xarici siyasət idarəsi rəhbərlinin fikrincə, bu vəziyyətin əsas səbəbi tərəflər arasında əlaqə kanallarının məhdud olmasıdır. Mövcud durumu "çox təhlükəli" adlandıran Lavrov deyib ki, məhz Qərb ölkələri, xüsusən də ABŞ və Böyük Britaniya bu kanalları bağlayıb.**



Qeyd edək ki, Lavrovun bu sözləri əsasən Suriyadakı vəziyyət, xüsusən də kimyəvi silah iddiaları və bundan sonra ABŞ, Britaniya və Fransa koalisiyasının bu ölkəni bombalaması ilə yaranan vəziyyəti nəzərdə tutaraq deyib. O bildirib ki, son bombardmanla "Moskva Qərbdəki dostlarına sonuncu inam qırıntılarını da itirib".

Ancaq aydın məsələdir ki, hazırda Rusiya və ABŞ arasında böyük gərginlik var, Vaşinqton Moskvanın iqtisadi "nəfəsliklərini" bağlamağa çalışır. Embarqolar Rusiya iqtisadiyyatına ciddi zərbə vurub, rusiyalı oliqarxlar böyük pul itkisi ilə üzləşib. O cümlədən ABŞ-ın sübuta yetirilməmiş nüvə ittihamları ilə Suriyanı bombalaması əslində Əsəddən daha çox Putini hədəfə alıb. Çünki Suriya savaşının qalibi faktiki olaraq Putindir və Rusiya lideri Yaxın Şərqdə, o cümlədən dünyada nüfuz qazanır. Vaşinqton Suriyanı bombalamaqla Putinə qarşı, onun güclü olduğu hər yerdə sərt davranacağını nümayiş etdirdi. Gündən-günə sərtləşən sanksiyalar isə, Lavrovun dediyi kimi, Qərb və Rusiya arasında sonuncu bağları da qoparır. Qərb Rusiyanı təcrid etmək, uğurlarına kölgə salmaq və iqtisadiyyatını çökdürməyə çalışır.

Qərb və Rusiyanın bu şəkildə qarşı-qarşıya gəlməsi bizim üçün də təhlükəlidir. Doğrudur, hələlik Vaşinqton və Moskva Suriyada "güclərini sınayır". Amma heç kim bu qarşıdurmanın Rusiyanın təsirli olduğu digər regionlarda, o cümlədən Cənubi Qafqazda yaşanmayacağına təminat verə bilməz. Üstəlik, Lavrov özü də etiraf edir ki, artıq danışıq üçün kanallar qalmayıb.

**Ankarada yaşayan siyasi şərhçi, dosent Toğrul İsmayıl** deyir ki, vəziyyətin bu həddə çatmasında həm də Rusiya günahkardır. Ekspertin fikrincə, Rusiyanın aqressiv siyasəti son nəticədə onun təcrid olunmasına və Qərbin şiddətli təzyiqləri ilə üzləşməsinə səbəb oldu: "Lavrov haqlıdır, münasibətlər "soyuq savaş" dövründən daha pisdir. Amma burada qəbahət təkcə Qərbdə deyil. Rusiyanın aqressiv ekspansiv siyasətini də unutmamaq lazımdır. Xüsusən də Suriya məsələsində Rusiyanın mövqeyi bütün dünyadan fərqləndi. Müqayisə eləsək, bəlkə də Rusiya özünü Sovetlər Birliyinin yerində görərək bu cür bənzətmələr edir. Üstəlik, sovetlər daha balanslı bir siyasət aparırdı, dünyanın nizamını təyin edirdi. Üstəgəl, SSRİ böyük hərbi, siyasi, iqtisadi gücü olan birlik idi. Ancaq indiki Rusiya o imkanları özündə daşımır. Bir tərəfdə dünya iqtisadiyyatının az qala üçdə ikisinə nəzarət edən Qərb var. Digər tərəfdə isə dünya iqtisadiyyatında 1 faizlik göstəriciyə sahib olan Rusiya dayanıb".

T.İsmayıl deyir ki, vəziyyətin yaxşı və ya pis olması aparılan siyasətə bağlı olacaq: "Rusiya İraq, Liviya böhranları zamanı özünü sakit apardı, hər hansı qarşıdurmaya getmədi. Rusiya dövlətinin atdığı addımlar, beynəlxalq hüquqla bağlı laqeyd yanaşma Rusiyanın beynəlxalq imicinə zərbə vurub. Başqa ölkələrin daxili işlərinə qarışan bir ölkə kimi tanınmasına səbəb olub. Önəmli olan özünü dünyaya necə göstərməkdir. Amerika mələk deyil, qəddar, aqressiv xarici siyasət qərarları var. Ancaq, dediyim kimi, daha çox özünü necə göstərməkdir. Qərb çalışır ki, Rusiyanın mənfi imicini, hücum edən, aqressiv ölkə imici yaratsın".

Ekspertin fikrincə, hazırda münasibətlər pis həddədir və bundan daha pis vəziyyət - müharibə də ola bilər: "Rusiyanın isə təkbaşına ABŞ və Avropaya qarşı savaş aparması isə şübhəli və riskli məsələdir. Belə bir müharibə ancaq nüvə savaşı ola bilər. Buna da nə Rusiya, nə Amerika, nə də başqası getməz. Amma "soyuq müharibə" illərində olduğu kimi, lokal mandat savaşları ola bilər. Bu çərçivədə Azərbaycan və Ermənistan arasında da savaş ola bilər. Ancaq belə bir savaş bölgədəki böyük güclərin izn verdiyi qədər keçərli ola bilər".

O ki qaldı region ölkələrinin, o cümlədən Azərbaycanın bu vəziyyətdən nə qədər təsirlənməsi mövzusuna, T.İsmayıl deyir ki, Rusiya-Qərb qarşıdurması bizim regionda da dərinləşsə, həm Qərbin, həm də Rusiyanın Azərbaycan hakimiyyətindən tərəf seçmək tələbləri gündəmə gələr bilər: "Hər halda bu cür məsələlər bizim kimi ölkələrə mənfi təsir edir. Bir deyim var, siyasi proseslər haqqında da deyilir. "Fillər sevişərkən də, savaşarkən də otlar əzilir". Yəni çalışıb "fil savaşlarında ot olmamaq" lazımdır. Yəni seçim qarşısında qalmaq ehtimalımız bu dəfə olduqca yüksəkdir. Amma bu o demək deyildir ki, mütləq belə bir tələb olacaq. Olmaya da bilər, çünki hər şey irəliləyən prosesdən asılı olacaq. Yəni hər şey regiondakı faktorlardan asılı olacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Rusdilli saytlara hücumun səbəbi bilindi

## Emil Mustafayev: "...Buna görə 3 gün blok olundum"

**Bir müddətdir ki, sosial şəbəkədə "soyuq müharibə" gedir. Xüsusən rusdilli media orqanlarının rəhbərlərinin Facebook hesabı bloklanır. Bundan başqa, ötən həftənin şənbə günü rusdilli minval.az saytı da güclü hücumlar nəticəsində öz fəaliyyətini bir neçə saat dayandırmaq zorunda qalmışdı.**



*Bəs nədir bu kiber hücumların arxasında dayanan məqam? Eyni vaxtda bir neçə rusdilli media orqanı rəhbərinin Facebook hesablarının bloklanması, ardınca isə sayta olan hücumlar yeni bir kiber müharibənin xəbərçisidir?*

**Minval.az saytının redaktoru Emil Mustafayev** bildirdi ki, hələ 2 ay bundan öncə azərbaycanlı fəalların erməni istifadəçiləri şikayət etmə dalğası başlamışdı. Onun sözlərinə görə, bu, bumeranq effekti yaratdı: "Analiz yolu ilə müəyyənləşdirdik ki, azərbaycanlı istifadəçilərin Facebookda blok edilməsinin səbəbi bir çox hallarda hansısa mətnlərdə "Azər" sözünün istifadəsi olub. Erməni istifadəçilər azərbaycanlılara işarə edərək tez-tez "azər", "azərilər" sözündən istifadə edirdilər. Azərbaycandan gedən şikayət üzərinə bu söz "qadağan edilmiş sözlər" siyahısına girdi. Azərbaycanlı şikayətçilər nəzərə almadılar ki, bu, eyni zamanda geniş yayılmış ad, kəlmədir. İndi hansısa bir statusda "azər" sözündən istifadə edilirsə və ya bu adda olan kiminsə adı çəkilirsə, bu, bloklama ilə müşayiət oluna bilər".

E.Mustafayev dedi ki, bu üsulla 3 sutka boyunca blok olunub. Müsahibimizin fikrincə, ölkəmizdə bu sayaq məsələləri tənzimləyən qurum olmalıdır: "Hesab edirəm ki, Azərbaycanda elə bir dövlət qurumu olmalıdır ki, Tvitter, Google, Facebook, Youtube kimi dünyəvi internet resursları ilə Azərbaycanın maraqlarının qorunması baxımdan işi tənzimləsin. Bu sayaq situasiyalarda belə bir "səfirlik" Facebook kimi sosial şəbəkələrlə danışıqları apara və azərbaycanlı sosial şəbəkə istifadəçilərinin ədalətsiz bloklama durumuna düşmələri ilə bağlı problemi həll edə bilərdi".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

**Ermənistan parlamentinin üzvü, müxalif "Yelk" fraksiyasının lideri Nikol Paşinyan aprelin 17-dəki aksiyada bəyan edib ki, Serj Sərkisyanın baş nazir seçilməsinin qarşısını almaq üçün mübarizə davam etdiriləcək.**

# Sərkisyan çıxılmaz durumda: Qarabağda müharibə başlada bilərmi?

## İrəvandan başlanan kütləvi aksiyalar Ermənistanın bölgələrinə yayılmaqdadır; keçmiş prezident erməni müxalifətini yenə də Qarabağda fors-major situasiya yaratmaqla tərksilah edə bilər

Beləliklə, müxalifət lideri aprelin 14-dən başlayan fasiləsiz aksiyaların hədəfə çatmadan dayandırılmayacağını bir daha elan edib. Xatırladaq ki, Paşinyan həftənin ilk günü polislə toqquşmada xəsarət aldığından xəstəxanaya aparılsa da, ilkin tibbi yardımdan sonra yenidən meydana qayıdıb və coşqu ilə qarşılanıb. Qeyd edək ki, İrəvan polisinin rəis müavini Valeri Osipyan aprelin 17-də səhər Nikol Paşinyana İrəvanda keçirilən kütləvi aksiyaların dayandırılması barədə polisin qərarını təqdim edib (Axar.az). O bu barədə qərarın aprelin 16-da verildiyini açıqlayıb. Paşinyan isə ona təqdim edilən qərarı hər kəsin gözü qarşısında cıraraq yerə atıb. Paşinyan tərəfdarlarına polisin əlinə keçməmək üçün necə etmək barədə təlim də verib. O, tərəfdarlarını kütləvi tətillərə başlamağa səsləyib: "Dövlət müəssisələrinə girin, oturaq aksiyalar keçirin, küçələri bağlayın. Nazirliklərin girişini qapadın, onların işinə mane olun. Binalara daxil olun, amma heç nəyi dağıtmayıb. Nəqliyyatın işinə mane olun. Eyni zamanda səfirliklərin binalarını da mühasirəyə alın".

İrəvanın Baqramyan prospektinə tank və başqa zirehli texnika yeridilib, digər küçələr isə tikanlı məftillərlə bağlanıb. Aksiyanın keçirildiyi əraziyə xüsusi təyinatlı polis dəstələri, döyüş maşınları, suvuran avtomobillər yerləşdirilib. Paşinyan ölkədə məxməri inqilabın başladığını elan edib. O, tərəfdarlarına bütün ölkə üzrə, müxtəlif şəhər və qəsəbələrdə aksiyaya başlamaq üçün çağırış edib. Aksiya iştirakçıları Baş Prokurorluq və Kasasiya Məhkəməsinin qarşısında oturaq aksiya keçirib. Paşinyon jurnalistlərə onların işinə mane olmamaq üçün müraciət edib.

Artıq aksiyalar bölgələrə də yayılıb. "Gümrüdə 1000 nəfər küçələrə çıxıb. İcevanda kütləvi tətil başlayıb, İcevan-İrəvan yolu bağlanıb. Vanadzorda tətillər başlayıb, İrəvanda, Qafanda, Metsamorda etirazlar gedir. Ermənistanda inqilabi situasiya yaranıb. Bu gün Ermənistanda dinc, demokratik narıncı inqilabın başladığını bir daha elan edirəm".

İrəvanda keçirilən etiraz aksiyalarının təşəbbüskarı olan deputat Nikol Paşinyanın oğlu Aşot Paşinyan həbs edilib.

İrəvanın Fransa meydanında çıxışı zamanı erməni deputat Nikol Paşinyan deyib, parlamentdə marionet iclas başlayıb. Paşinyanın tərəfdarları parlamentdəki səsverməni əngəlləmək üçün küçələrdə hərəkəti iflic ediblər. Ölkədə "məxməri inqilab"ın başladığını elan edən müxalifət lideri tərəfdarlarını küçələrə çıxmağa, nəqliyyatın hərəkətini dayandırmağa, dövlət binalarına girib piketlər keçirməyə çağırıb. Ermənistanın eks-prezidenti, hazırda baş nazirliyə namizəd Serj Sərkisyan parlamentdə çıxış edərkən bir sıra suallara cavab verib. Əsas hədəfi hökumətə rəhbərliyi ələ keçirməkdən ibarət olan eks-prezident hiyləgərcəsinə iki il əvvəlki hadisələrə, 2016-cı ilin dördgünlük müharibəsinə toxunub və ictimaiyyətin yadına o günləri salmağa çalışıb. Sərkisyan deyib ki, aprel döyüşləri gözlənizməz olduğu qədər həm də təxmin olunurdu. Ardınca o, erməni ordusundakı problemlərə də diqqət çəkib, döyüş ruhu, hərbçilərin sosial durumunun yaxşılaşdırılması, yeni silahların alınması və xalqın gələcəyə inamının artırılması kimi həllivacib məsələlərdən bəhs edib. Bununla belə, S.Sərkisyan "biz daha 2016-cı ilin aprelindəki kimi deyilik", - deyə iddia edib. Suallara cavabdan sonra S.Sərkisyanın baş nazir postunu tutması üçün açıq səsvermənin keçirilməsi nəzərdə tutulurdu və çox güman ki, hakim partiyanın səsverməsi şəraitində o, arzusuna çatacaq. Əslində S.Sərkisyan baş nazirliyi konstitusiya dəyişikliklərinə gedərkən hədəf seçmişdi Belə ki, o, Ermənistanın parlament üsul-idarəsinə keçidini rəsmiləşdirməklə həm də prezidentliyini baş nazirliklə əvəzləmək istəyirdi və elə parlament seçkilərindəki kütləvi saxtakarlıq, Levon Ter-Petrosyan kimi müxalifət liderlərini parlamentə buraxmamaqla əvvəlcədən yolunu təmizləmək istəmişdi.

Lakin bu da var ki, Ermənistanda vəziyyət idarəolunmaz həddə gəlib çatıb. Belə ki, günlərdir aksiyalar keçirib İrəvanda həyatı iflic etmiş minlərlə insan artıq bir neçə dövlət obyektlərini ələ keçirib. Üstəlik, etirazçıların sayı artmaqda davam edir.

Bütün bunlar Qarabağ kartından öz hakimiyyətini uzatmaq üçün daim istifadə edən cinayətkar Sərksiyanın növbəti dəfə yararlana biləcəyi ehtimalını yaradır. Düzdür, o, parlamentdəki çıxışında "bizim Qarabağ probleminin sülh yoluyla həlli ilə bağlı mövqeyimiz dəyişməyib, erməni ordusunun gücləndirilməsi və modernləşdirilməsi isə gündəlik işimizin predmetidir" deyib. Lakin istisna deyil ki, Sərkisyan bunu beynəlxalq aləmə ünvanlamaqla dəstək qazanmağa çalışıb. Bir sıra müşahidəçilər hesab edir ki, S.Sərkisyan ölkə müxalifətini "tərksilah" etmək, diqqəti daxildə baş verənlərdən yayındırmaq üçün Qarabağda fors-major situasiya yarada, müharibəni alovlandırmaqla aksiyaları arxa plana keçirə bilər. Düzdür, bu, S.Sərksiyan və Ermənistan üçün riskli addımdır, amma bundan əvvəl bir neçə dəfə belə təxribatların şahidi olmuşuq. S.Sərkisyan ya Qarabağda, ya da elə Ermənistanda qan tökməklə hökuməti qəsb edə bilər. 2008-ci ilin mart təcrübəsi bunu deyir.

Aprelin 17-də cəbhənin Tərtər istiqamətində Ordumuzun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq məhv edilib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb. Bundan əvvəl işğalçı ölkə Naxçıvan və Qazax istiqamətindən Ermənistan "ərazilərinin atəşə tutulması" iddialarını tirajlamaqla da erməni xalqını Azərbaycanla qorxutmağa çalışmışdı.



**Politoloq Toğrul İsmayıl** "Yeni Müsavat"a açıqlamasında Serj Sərkisyanın bu durumda Qarabağda müharibəni başladacağına inanmadığını bildirdi: "Çünki başlayacaq müharibə Sərkisyanın lehinə olmayacaq, əksinə, onun əleyhinə çevriləcək. Çünki Azərbaycan, istər əsgəri güc baxımından, istərsə də iqtisadi cəhətdən, Ermənistandan qat-qat güclüdür, bu, bir gerçəklikdir. Ona görə də Ermənistan daxilində baş verənlərin fonunda Qarabağda müharibənin başlanması real görünmür. Digər tərəfdən, Rusiya bu dəqiqə Ermənistanın müharibəyə başlamasına icazə verməz. Çünki Rusiya çoxtərəfli mübarizə aparacaq gücdə deyil".

T.İsmayıl qeyd etdi ki, bu dəqiqə Rusiyanın diqqəti əsasən Suriya və Ukraynaya yönəlib: "Onun xaricində bir Qarabağ cəbhəsinin də açılması Rusiyanın işlərinə maneçilik yarada bilər. Həm Rusiya, həm də ABŞ bu cür savaşın başlamasına icazə verməz. Çünki daha ciddi məsələlər var. Digər tərəfdən, Ermənistanın başladacağı savaşa böyük güclərin razılığı olmasa, bu, onun məğlubiyyəti ilə nəticələnə bilər. Ona görə də belə bir savaşın olacağını düşünmürəm".

"Bu gün Sərkisyan Rusiyanın icazəsi olmadan hansısa hərbi əməliyyatlara başlaya bilməz". Bunu isə **politoloq Arzu Nağıyev** qəzetimizə bildirdi. Politoloqun sözlərinə görə, Rusiya da maraqlıdır ki, məhz Sərkisyan baş nazir postuna təyin edilsin.

Maraqlısı budur ki, hələlik Rusiya İrəvanda baş verənləri sakitcə izləyir. Aprel döyüşlərində dörd gün susmaqla Ermənistanı sarsıdan Moskva yenə susur...

**❑ Cavid TURAN, "Yeni Müsavat"**

# Erməni qovğası - "Miatsum"dan "vertsnel"ə



**Xalid KAZIMLI**

**Yaxın-uzaq ölkələrdə hansı hadisə baş verirsə, versin, hansı proses gedirsə, getsin, biz onlara öz faydamız prizmasından baxırıq. Bəlkə də düzü budur. Qonşu və düşmən Ermənistanda baş verənlərə və bizim bu ölkənin daxilində yaranmış duruma münasibətimiz də o qəbildəndir.**

Bizi Ermənistanda kimin haqlı, kimin haqsız olması, kimin haqq-ədalət davası aparması, kimin öz hakimiyyətini necə qoruması maraqlandırmır.

Bu, yeganə ölkədir (aradakı düşmənçiliyə görə) ki, biz orada dalaşan, dartışan, boğuşan qüvvələr arasında tərəf tutmur, hansısa tərəfi dəstəkləmirik. Açığı belədir ki, biz Ermənistanda davanın özündən yanayıq.

Nə qədər qeyri-populyar və qeyri-diplomatik dildə ifadə edilsə də, bu, məhz belədir. Biz istəyirik ki, erməni siyasilər daima bir-biri ilə qovğada, dava-dalaşda olsun. Biz İrəvandakı qarışıqlığın Qarabağ cəbhəsində işimizə yaraya biləcəyini düşünürük.

Bu güman əsassız deyil. Bir dövlətin zəifləməsi, tənəzzülü onun daxilindəki qüvvələrini bölünüb qarşı-qarşıya durmasından, bir-biri ilə çəkişməsindən başlayır və bu, sonda ağır nəticələr verir.

Bunu biz öz ölkəmizin təcrübəsindən bilirik. 1992-ci ilin əvvəlində və 1993-cü ilin ortalarında Qarabağ cəbhəsində məruz qaldığımız ərazi itkiləri məhz siyasi çəkişmələrə, hərbi briqadanın itaətsizliyinə və qiyam qaldırmasına görə oldu.

İndi ermənilər təxminən elə bir durumdadırlar. Bu ölkədə hakimiyyət uğrunda mübarizə başlayıb və şiddətlənir.

Buna klanlararası münaqişə də demək olar. Ermənistan klassik Avropa ölkəsi olmadığı, Şərq ölkəsi olduğu üçün, orada da hakimiyyət davası sırf Şərq üslubunda gedir, hakimiyyət ehtirası çox güclüdür, "o varsa, həyat var, yoxdursa, həyat yoxdur" prizmasından baxılır.

Artıq 20 ildən çoxdur ki, Ermənistanda hakimiyyət "Qarabağ klanı"nın əlindədir. Zatən, Qarabağ münaqişəsi başlayandan bəri Qarabağ erməniləri ölkədə üstün mövqelər tutublar, Misir məmlükləri kimi hər şeyə əl qoyublar.

Eks-prezident Levon Ter-Petrosyan da hakimiyyətə Qarabağ kartı ilə gəlmişdi, elə o kartla da vuruldu. Ermənistanın sabiq rəhbəri Karen Dəmirçiyanın hakimiyyətə birinci şəxs olaraq qayıdışı alınmadı.

Maraqlıdır ki, üç Qafqaz ölkəsində iki keçmiş rəhbər (Əliyev və Şevardnadze) dövlət başçısı ola bildi, amma Dəmirçiyana bu imkanı vermədilər, onu parlamentin spikeri ikən öldürdülər. Onun oğlu Stepan Dəmirçiyanın, eləcə də Ter-Petrosyanın revanşları da alınmadı.

Hazırda isə İrəvan erməniləri yeni bir liderin - Nikol Paşinyanın ətrafında birləşərək "Qarabağ klanı"na cəbhə açıblar. Bu avantüranın sonu necə olacaq, hələ bilinmir.

Ortalıqda olan əsas fakt odur ki, eks-prezident Serj Sərkisyan birinci şəxs postundan getsə də, baş nazir (guya ki, ikinci şəxs) olaraq hakimiyyətə qayıtmaq istəyir. Hamı bilir ki, o, qayıdarsa, prezidentin özünə belə rəhbərlik edəcək, onu formal "prezident" kimi işlədəcək. Və insanlar buna etiraz edir.

İrəvanda gedən davanın məğzi, mahiyyəti budur.

Ancaq bir az dərindən düşünsək, bizə, Azərbaycana Paşinyanın qalib gəlməsi sərf edir.

"Qarabağ klanı"nın və Serj Sərkisyanın Qarabağ məsələsində nə qədər güzəştsiz olduqlarını son 20 ilin hadisələri, saysız-hesabsız görüşlər, sonu görünməyən danışıqlar azı yüz dəfə sübut edib. Bu klan münaqişənin həlli üçün heç bir addım atmayacaq. Çünki onlar Qarabağda doğulub-böyüyüblər, oranı özlərininki hesab edirlər.

Paşinyan və onun ətrafındakılar üçün isə Qarabağ qonşu və düşmən Azərbaycanın əyalətidir, erməni gənclərinin gülləyə gəldiyi, minaya düşdüyü yerdir. Onlar bunu dillərinə gətirməsələr də, alt şüurda daima bunun fərqindədirlər.

Bütün erməni xalqı görür ki, "Qarabağ klanı"na daxil olan şəxslərin övladları Londonda, Parisdə, Nyu-Yorkda, Moskvada kef etdikləri halda, irəvanlı, gümrülü, eçmiədzinli, sünikli gənclər gedib Qarabağda ölürlər.

Bu baxımdan Sərkisyan və dəstəsi hakimiyyətdən kənarlaşdırılsalar, onların yerinə Ermənistanın özündə doğulub-böyümüş adamlar hakimiyyətə gəlsələr, Qarabağın statusunun müəyyənləşdirilməsi istiqamətində danışıqlarda yeni bir mərhələ başlaya bilər.

Çünki 30 ildir həll olunmayan bu münaqişə regiondakı bütün ermənilərin həyatında ciddi problemlər yaradıb, onların güzəranını pisləşdirib, müharibədə minlərlə adam ölüb, yaralanıb.

Vaxtilə "miatsum (qovuşmaq) avantürası"nı İrəvan erməniləri başlatmışdılar, "vertsneli" (əl çəkmək) də yalnız onlar edə bilərlər.

# Zakir Qaralov Rusiya baş prokuroruna müraciət etdi



**Baş prokuror Zakir Qaralov "İzvestiya" qəzetinin "İz.ru" informasiya portalının redaksiyası tərəfindən 16 aprel 2018-ci il tarixdə həmin portalda yayılmış məlumatda Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yerləşən qondarma rejimin bayrağı və digər şüarların nümayiş etdirilməsi ilə əlaqədar Rusiya Federasiyasının baş prokuroru Yuriy Çaykaya müraciət edib.**

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müraciətdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yol verilmiş qanunazidd hərəkətlər qəti şəkildə pislənərək, informasiya portalının redaksiyası tərəfindən yol verilmiş təxribatın ictimaiyyət arasında geniş rezonans doğurması bildirilməklə obyektiv və ədalətli şəkildə araşdırma aparılması və həmin hərəkətlərə qısa müddətdə hüquqi qiymət veriləcəyinə əminlik ifadə olunub.

Qeyd edək ki, "İzvestiya" qəzetinin saytında Ermənistanın eks-prezidenti, hazırda baş nazir postuna namizədliyi irəli sürülən Serj Sərkisyanla müsahibə yer alıb.

# Düşənbədə Qarabağa dair kommunike

**Aprelin 17-də İqtisadi Əməkdaşlıq Təşkilatı xarici işlər nazirlərinin 23-cü iclasının nəticəsi olaraq Düşənbə kommunikesi qəbul olunub.**

XİN-dən APA-ya verilən məlumata görə, kommunikedə İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda həll edilməmiş münaqişələr, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinin mövcud olmasının iqtisadi inkişaf və regionun potensialının tam şəkildə istifadəsinə, regional və daha geniş əməkdaşlığa ciddi şəkildə maneə olmasına münasibətdə narahatlıq ifadə olunaraq, bu kimi münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə dövlətlərin ərazi bütövlüyü və suverenliyi əsasında tezliklə həll edilməsi üçün səylərin artırılmasının vacibliyi qeyd olunub.

Sənəddə Bakı-Tbilisi-Qars dəmir yol xətti, Şimal-Cənub nəqliyyat dəhlizi, habelə Bakı-Ceyhan neft kəməri, genişləndirilmiş Bakı-Ərzurum təbii qaz kəməri, Azərbaycan-İran-Rusiya elektrik ötürmə xətti kimi irimiqyaslı regional nəqliyyat və enerji layihələrinin əhəmiyyəti vurğulanıb.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

# Bakı tolerantlığın paytaxtına çevrilir




**Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi Aİ üzv dövlətlərinin səfirlikləri, İsveçrə, Norveç, Braziliya, Kosta Rika, İsrail, Peru, Moldova, Meksika, Birləşmiş Ştatlar, Argentinanın Bakıdakı səfirlikləri və United Cultures ilə birgə əməkdaşlıq çərçivəsində mədəniyyətlərarası dialoq və tolerantlıq dəyərlərini təbliğ edən 2-ci IMAGINE Avropa Tolerantlıq Festivalını təşkil edir.**

Aİ ofisinin məlumatında bildirilir ki, festival mayın 2-dən 17-dək keçiriləcək. Proqrama musiqi tamaşaları, master klaslar, teatr sərgiləri, film nümayişləri, debatlar və İmagine Avropa Tolerantlıq Festivalına qatılacaq beynəlxalq səviyyədə tanınmış film rejissorları və musiqiçilərlə müzakirələr daxildir.

Festival İnsan Hüquqları Bəyannaməsinin 70 illiyinə həsr olunur. Festivala tolerantlıq və müxtəliflik mövzusunda 40-dan çox sənədli film təqdim olunacaq.

Təşəbbüs Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Cinex Production, ADA Universiteti, Baku Musiqi Akademiyası, Venesiyanın Ca" Foscari Universiteti, Azərbaycan Dillər Universiteti, ADO Teatr- Kollektivinin əməkdaşlığı ilə The Landmark, Park Cinema, "Yarat" Müasir İncəsənət Mərkəzi tərəfindən dəstəklənib.

Aprelin 19-da saat 17:00-da Landmark-da festivalla əlaqədar mətbuat konfransı keçiriləcək.

# İşğaldan sonra 4 ay Kəlbəcərdə-62 nəfərin hekayəti...

## 1993-cü ilin aprelin 18-də Başlıbel kəndində baş verən dəhşətli hadisədən 25 il ötür...



**Bu gün Kəlbəcər rayonunun ən böyük kəndi olan Başlıbeldə ermənilərin törətdiyi qətliamdan 25 il ötür. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklərdən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalından 16 gün sonra Başlıbel kəndində törədilib. İşğal zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər dağlara sığınıb.**

Lakin həmin şəxslər cəmi 17 gün gizlində qala biliblər. 1993-cü il aprelin 18-də erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlayıb. Bu insanlar cəmi 2 ov tüfəngi və onlara qoşulan üç əsgərlə birlikdə əllərində olan bir neçə avtomat silahla düşmənə müqavimət göstəriblər. Ermənilərin hücumu zamanı 27 nəfər dinc sakin, əslən Zərdab rayonundan olan Vüqar adlı əsgər güllələnərək qətlə yetiriliblər. Vüqarın qəhrəmanlığı-əlindəki silahla müqavimət göstərməsi ermənilərin bütün sakinləri qırmasının qarşısını alıb. Ermənilər Başlıbel kəndini işğal edərkən II Dünya müharibəsi iştirakçısı olan bir nəfəri-Hüseyn Hüseynovu diri-diri yandırıblar. Kənd sakini, ruhi xəstəlikdən əziyyət çəkən Qənaət Ağamirovu işgəncə ilə qətlə yetiriblər.

19 nəfər kənd sakini (qadın, uşaq və qoca) isə Ermənistan hərbçiləri tərəfindən girov götürülüb. Düşmən gülləsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilib və daha 113 gün mühasirə həyatı yaşayıb. Sağ qalan həmin şəxslər dəfələrlə ölümlə üz-üzə gəlib və günlərlə ac-susuz qalıblar. Mühasirədən çıxaraq dörd sutka piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə biliblər. Amma 1 nəfər- I və II Dünya müharibəsi iştirakçısı Ələsgər Ələsgərov doğma torpağını tərk etməyərək Başlıbeldə qalıb. Ələsgər Ələsgərov bu günədək itkin sayılır və onun barəsində hər hansı məlumat yoxdur.

Qeyd edək ki, Başlıbel Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biridir. 7659 hektar ərazisi olan kənd iki dağ çayının qovuşduğu yerdə, Dəlidağın ətəyində yerləşirdi. Kəndin ərazisində 1993-cü ilədək yaşayan yerli sakinlər isə Azərbaycan türkləri olub.

İşğal dövründə Başlıbel kəndinin əhalisinin sayı 1790 nəfər olub. Kənddə 323 fərdi yaşayış evi, 380 şagird yerlik bir orta məktəb, 45 yerlik uşaq bağçası, 45 çarpayılıq xəstəxana olub. Kənddə işğal dövründə 6 mağaza, 1 hamam, 1 çörək sexi, 1 klub, 1 mədəniyyət evi, 2 kitabxana fəaliyyət göstərib. İşğal dövründə kənddə olan 25 ədəd yük avtomobili, 2 UAZ, 2 sərnişin avtobusu, 5 traktor, onlarla digər kənd təsərrüfatı texnikası kənd ərazisində qalıb. Kənd sakinlərindən heç kəs evindən heç bir əmlak çıxara bilməyib. O cümlədən 4500 iribuynuzlu, 12 000 xırdabuynuzlu heyvan, 100 minədək ev quşu, 700 arı ailəsi kənd ərazisində qalıb və ermənilər tərəfindən qarət edilib. Qeyd edək ki, Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyi tərəfindən 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Başlıbeldə törədilən qətliamdan bəhs edən "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" adlı kitab Azərbaycan və ingilis dillərində çap edilib.

**Etibar SEYİDAĞA,**

# İsgəndər Həmidovun "3-4 rayonu alaq" açıqlamasına QAT-dan dəstək

## Akif Nağı: "Biz savaşa başlasaq, bəlkə də onlar yenidən bir araya gələ bilməyəcəklər"

**Keçmiş daxili işlər naziri İsgəndər Həmidov bildirib ki, Qarabağ məsələsinin həllində ümid ancaq savaşa qalır. Hərbi əməliyyat keçirib 3-4 rayonu almalıyıq, sonra danışıqlar masası arxasında söhbətlər aparıla bilər. Sabiq nazir həmçinin deyib ki, Ermənistanın daxilində hazırda qarışıqlıq hökm sürür.**



Bu fürsətdən yararlanmalıyıq: "Belə fürsətlər bizim əlimizə çox düşüb. Bundan əvvəl də seçkilər ərəfəsində Serj Sərkisyan Dağlıq Qarabağdakı qoşunu İrəvana çağırmışdı, onda əsl məqam yetişmişdi. Bu günlərdə də vəziyyət çox gərgindir. Ermənistanın döyüşən hissələri Dağlıq Qarabağdadır, onları geri çağıra bilərlər. Sözsüz ki, yenə də işğal altındakı ərazilərdən hərbi qüvvələri Ermənistana çağıracaqlar. Çünki Sərkisyan özü Dağlıq Qarabağdandır. Ermənistanda bunlara "azikı" deyirlər. Sərkisyanın, Köçəryanın inandığı hərbçilər də Dağlıq Qarabağda olanlardır. Getdikcə ara qarışanda Dağlıq Qarabağdakı qoşun hissələrini Ermənistana aparacaqlar. O zaman Azərbaycan hakimiyyəti özündə cəsarət tapıb hərbi əməliyyatlara başlaya və ərazilərimizi azad edə bilər".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** isə "Yeni Müsavat"a bildirdi ki, müharibə başlanmalıdır, lakin 3-4 rayonla kifayətlənib dayandırılmamalıdır: "Biz Qarabağ Azadlıq Təşkilatı olaraq sona qədər-bütün ərazilərimiz erməni işğalından azad edilənədək müharibənin tərəfdarıyıq. Sağlam məntiq də onu tələb edir ki, yarımçıq qələbə ilə ciddi və tam nəticələrə, Ermənistanın bütün iddialarından geri çəkilməsinə nail olmaq mümkün deyil. Cəmiyyətdə o cür fikirlər yer alır ki, 3-4 rayonu azad edəndən sonra ermənilər danışıqlarda daha yumşaq mövqe tuta bilər. Amma bu, inandırıcı deyil. Əksinə, bu cür yarımçıq qələbə ilə, yarımçıq nəticə ilə kifayətlənməli ola və ərazilərimizin xeyli hissəsini həmişəlik itirə bilərik. Hazırkı məqamla bağlı mən də hesab edirəm ki, düşmən tərəfdə siyasi böhranın, daxili gərginliyin olmasından istifadə etmək gərəkdir. Serj Sərkisyan bu vəziyyətdən, yəqin ki, çıxacaq, baş nazirliyi ələ keçirəcək, amma ondan sonra vəziyyət böyük ehtimalla daha gərgin olacaq. Həmin fürsəti gözləmək bəlkə daha əlverişli olar. Belə bir məsələ də var ki, ermənilər Azərbaycan tərəfindən real təhlükə yaranan kimi dərhal hər şeyi unudub bir araya gəlirlər. Amma indi deyəsən hakimiyyət hərislərinin mübarizəsi, Serjin hakimiyyət ehtirası o qədər yüksək həddə çatıb, elə geriyədönməz hala gəlib ki, biz savaşa başlasaq, bəlkə də onlar yenidən bir araya gələ bilməyəcəklər. Ona görə də başlamaq lazımdır".

**Politoloq Elçin Mirzəbəyli** isə bildirdi ki, indiki vəziyyətdə Azərbaycanın müharibəyə başlaması Serj Sərkisyanın daxildə mövqelərinin möhkəmlənməsinə dolayısı ilə səbəb ola bilər: "Əvvəla, Ermənistanda ara Rusiyanın icazə verdiyi yerə qədər qarışıb. Digər tərəfdən, indiki şəraitdə Ermənistana qarşı hansısa addımların atılması yalnız və yalnız Qarabağ kartı üzərindən hakimiyyətini qoruyub saxlamağa çalışan Serj Sərkisyanın mövqelərini möhkəmləndirə bilər. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi Ermənistanda yaranmış "fürsətli vəziyyət"dən daha çox digər, bu söhbətimiz əsnasında sadalamaq istəmədiyim amillərlə bağlıdır.

Azərbaycanın öz torpaqlarını işğaldan hərbi əməliyyatlar vasitəsilə azad etmək potensialına gəldikdə isə, mən bu potensialı Ermənistan daxilindəki hər hansı bir fürsətlə əlaqələndirməyi doğru saymıram. Silahlı Qüvvələrimiz kifayət qədər güclüdür".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Rusiya və Azərbaycanın ardınca Ermənistan da seçki zolağından çıxmaq üzrədir. Artıq Qarabağ məsələsini irəli aparmaq üçün, necə deyərlər, seçki əngəli qalmır. Ancaq nəzərə alsaq ki, problemin həllində şimal qonşumuz müstəsna rol oynayır və əksər analitiklərə görə, hələ uzun müddət də oynayacaq, o zaman ciddi təşəbbüslərin də məhz Moskvadan gəlməli olduğu qənaəti qətiləşər.**





# Qarabağı Rusiyadan, yoxsa Rusiya-Türkiyə cütlüyündən istəməli - mühüm gözlənti

## Türkiyənin bölgədə artan rolu - Moskvaya və Qarabağ məsələsinə də artan təsiri deməkdir; **amerikalı politoloq:** "Rusiya Qarabağ münaqişəsi ilə bağlı Ermənistana təzyiq göstərəcək və Ermənistanı uzaqlaşdıracaq..."

Bu reallıq da var ki, Rusiya Azərbaycan ərazilərinin faktiki işğal ortağıdır və Qarabağ münaqişəsində vasitəçidən çox, tərəfdir, üçüncü tərəfdir. Bunu Kremldə etiraf eləməsələr də. Azərbaycan üçün vəziyyətin ən qəliz tərəfi və konfliktin həllini əngəlləyən də elə budur - Ermənistan yox, Rusiya amili.

Ötən həftə Türkiyədə səfərdə olmuş **politoloq Elxan Şahinoğlunun** sözlərinə görə, qardaş ölkənin hakimiyyət, parlament və siyasi-ekspert dairələrində də Rusiya faktorunun hələ bir müddət vazkeçilməz olacağını diqqətə çatdırıblar və ixtilafın nizamlanmasında "Moskva ilə işləməyi" vacib sayıblar. O da vurğulanıb ki, Rusiyaya təsiri artırmaq üçün Azərbaycan daha da qüdrətlənməli və qardaş ölkə ilə bundan da sıx siyasi-hərbi ittifaqda olmalıdır.

Bu xüsusda ekspertin gəldiyi qənaətlər arasında bunlar da var: "Türkiyədə daxili və xarici siyasət məsələlərində bir-birini kəskin tənqid edən partiyalar və deputatlar Azərbaycan və Dağlıq Qarabağ məsələsində faktiki eyni mövqedən çıxış edirlər. Əsas fikir bundan ibarətdir ki, Türkiyə həmişə Azərbaycanın yanında olmalı və onun haqlı maraqlarını qorumalıdır. Türkiyə Dağlıq Qarabağ məsələsində dialoqu Azərbaycanın lehinə dəyişdirməyə çalışmalıdır; Azərbaycan və Türkiyə iqtisadi və hərbi baxımdan güclü olmalıdırlar ki, Qarabağla bağlı danışıqlarda güclü olsunlar; Rusiya-Türkiyə ittifaqını pozmağa çalışan qüvvələr var. Bu ittifaq dağılmasa, Suriya ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə də məşğul ola bilər. Türkiyə-Rusiya ittifaqı iradə ortaya qoyarsa, Qarabağ münaqişəsi Azərbaycanın xeyrinə həll oluna bilər; Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilərə qoşulmağa çalışmalıdır; Ankara Moskvanı inandırmalıdır ki, Qarabağ münaqişəsi həll olunmadan bölgədə sabitlik olmayacaq".

*****

Rusiyanın başı isə son aylar Qərblə getdikcə daha da gərginləşən münasibətlərə qarışıb. Belədə aydındır ki, Kreml Güney Qafqazda 30 illik konfliktin həllində həvəsli olmaz. Yaxud olsa belə, öncədən bunun ona konkret hansı siyasi, geosiyasi və hərbi dividendlər gətirəcəyinə əmin olandan sonra problemə girişər. Cənubi Qafqazı isə Moskva öz "həyati maraqlar" zonalarından biri, daha dəqiqi, "arxa bağça" hesab edir.

Lakin problemin həllində dönüş yarada biləcək bir faktor da, deyəsən, yavaş-yavaş gündəmə gəlməkdədir. Bu da Türkiyə və Rusiya arasında getdikcə genişlənən strateji tərəfdaşlıq əlaqələridir. Bəzi siyasi müşahidəçilərə görə, o səbəbdən Azərbaycan üçün unikal şans yetişə bilər. O mənada ki, Bakı Qarabağı Rusiyadan yox, əslində Rusiya-Türkiyə cütlüyündən istəyə bilər. İddialara görə, proseslər hətta ona doğru gedir.

**Bununla bağlı rusiyalı tanınmış politoloq və tarixçi-analitik Oleq Kuznetsovun** minval.az saytına müsahibəsində söylədiyi bir fikir maraq doğurur. Politoloq deyib ki, günün birində Moskva Ankara ilə güclənən əlaqələr fonunda Bakıya ərazilərini güc yolu ilə qaytarmaq razılığı da verə bilər. Rusiyalı analitik hətta təxmini tarix də deyib - uzağı 2020.

*****

İstənilən halda, yəqin hamıdan yaxşı elə Rusiya rəhbərliyi anlayır ki, konfliktin bunca uzanması, sülh danışıqlarında xroniki nəticəsizlik Kremlin Bakıya "dobro" verib-verməməsindən asılı olmayaraq, müharibəni gec-tez qaçılmaz edəcək. Çünki mövcud status-kvo Moskva və İrəvanı, Qərbi harada qane eləsə də, Azərbaycanı, Azərbaycan xalqını qane və məmnun edə bilməz. Azərbaycan xalqının səbri hüdudsuz deyil...

"Biz hərbi əməliyyatlar keçirib ən azı 3-4 rayonu almalıyıq". Bunu "Yeni Müsavat"a açıqlamasında sabiq daxili işlər naziri İsgəndər Həmidov deyib. Keçmiş nazirə görə, ümid məhz savaş variantına qalır. "Mən 30 ildir deyirəm ki, qanla işğal olunan torpaq qanla geri alınmalıdır. Hərbi əməliyyat keçirib 3-4 rayonu almalıyıq, sonra danışıqlar masası arxasında söhbətlər aparıla bilər", - deyə o qeyd edib. Onun fikrincə, İrəvanda son baş verənlər Azərbaycana fürsət yaradır: "Belə fürsətlər bizim əlimizə çox düşüb. Bundan əvvəl də seçkilər ərəfəsində Serj Sərkisyan Qarabağdakı qoşunu İrəvana çağırmışdı, onda əsl məqam yetişmişdi. Bu günlərdə də vəziyyət çox gərgindir. Ermənistanın döyüşən hissələri Dağlıq Qarabağdadır, onları geri çağıra bilərlər. Çünki Sərkisyan özü Dağlıq Qarabağdandır. O zaman Azərbaycan hakimiyyəti özündə cəsarət tapıb hərbi əməliyyatlara başlaya və ərazilərimizi azad edə bilər".

*****

**Bəs hərbi əməliyyatların bərpa ehtimalı bu il üçün nədir, o, gerçəkləşə bilərmi?**

Bu arada **ABŞ Xarici İşlər Nazirliyinin Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş məsləhətçisi, Dövlət Departamentinin keçmiş analitiki, ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beykerin Sovet İttifaqı millətləri üzrə müşaviri, Avrasiya millətləri üzrə ekspert Pol Qobl** Qarabağ ixtilafı kontekstində maraqlı açıqlama verib (Axar.az).

"Corc Buşun dönəmində Con Bolton Azərbaycanı Rusiya Federasiyasının təcavüzündən qorumaq lazım olduğunu demişdi. Hazırda Bolton ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik müşaviri olmaq üzrədir. Bu, ABŞ-ın Azərbaycan siyasətinə təsir göstərə bilərmi" sualına cavabında politoloq deyib: "Ümid edirəm ki, cənab Bolton nə dediyini xatırlayır və buna uyğun davranacaq. Azərbaycanın Qafqazda müstəqil bir dövlət kimi fəaliyyəti və rəsmi Moskvadan asılı olmaması olduqca mühümdür".

Amerikalı ekspert regionda Rusiya ilə İranın vəziyyətinin gərginləşməsi ilə Azərbaycan üçün çətin vəziyyət yarana biləcəyi haqda fikirlərə də münasibət bildirib. "Rusiya hazırda öz sərhədlərində yaranacaq hər hansı problemdən çəkinir. Buna görə də keçmişdə etməsinə baxmayaraq, qonşuları üçün narahatlıq yaratmayacaq. Moskvanın Cənubi Qafqazdakı siyasəti dəyişməz olaraq qalır: Gürcüstanı keçid yolu, Ermənistanı alət kimi istifadə edərək Azərbaycanı qazanmaq. Mənim təxminlərimə görə, rəsmi Moskva Qarabağ münaqişəsi ilə bağlı Ermənistana təzyiq göstərəcək və Ermənistanı uzaqlaşdıracaq. Bu, qeyri-real səslənə bilər, amma Rusiya, Moskva Azərbaycanı öz tərəfinə çəkmək üçün bu addımı atacaq kimi görünür. Rusiya Azərbaycana bundan artıq heç nə təklif edə bilməz", - deyə o əlavə edib.



# Təmas xəttində növbəti monitorinq keçiriləcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 18-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən xəbər verir ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Mixail Olaru keçirəcəklər.

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

**Bayıl yamacında sürüşmə sahəsində ziyan çəkmiş 6 fərdi yaşayış evində yaşayan sakinlərə birdəfəlik maddi yardımın verilməsi ilə bağlı baş nazir Artur Rəsi-zadə tərəfindən Nazirlər Kabinetinin müvafiq sərəncamı imzalanıb.**

# Bayıl sürüşməsində kompensasiya davası mərhələsi-təfsilat

## Bayıl yamacından köçürülən sakinlər aksiya keçirdilər





Bu barədə **Səbayel Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini İsrafil Kərimov** məlumat verib. Məlumatda qeyd olunur: Səbayel rayonu Bayıl yaşayış sahəsində yerləşən Cənubdərə adlanan ərazidə 10 fevral 2018-ci il tarixdə baş vermiş lokal torpaq sürüşməsi nəticəsində ev əşyaları ilə birlikdə dağılaraq yaşayış üçün tam yararsız vəziyyətə düşmüş, ümumi sahəsi 306 kvadratmetr olan 4 fərdi yaşayış evinin, həmçinin bir hissəsi dağılaraq yaşayış üçün yararsız vəziyyətə düşmüş ümumi sahəsi 182 kvadratmetr olan 2 fərdi yaşayış evinin sahiblərinə evin bir kvadratmetri üçün 700 manat və hər bir evdə yararsız vəziyyətə düşmüş ev əşyaları üçün 1500 manat olmaqla birdəfəlik maddi yardım ödənilməsi qərara alınıb.

Bildirilib ki, qeyd olunan vəsait Səbayel Rayon İcra Hakimiyyəti tərəfindən ailə başçılarının bank hesablarına 3 gün müddətində köçürüləcək. Həmin 6 fərdi yaşayış evinin tam sökülməsi də Səbayel RİH-ə həvalə olunub.

Onu da xatırladaq ki, baş nazirin müavini Abid Şərifov bildirmişdi ki, Bayıl sürüşmə zonasından 97 ailə köçürüləcək. O qeyd etmişdi ki, köçürülən ailələrə kompensasiya veriləcək: "Bayıl sürüşmə zonasından köçürülməli olan 97 ailəyə birdəfəlik kompensasiya verilməsi məsələsi üzərində çalışırıq. Amma bu, asan məsələ deyil. Vəsait məsələsinin həllinə çalışırıq".

"Yeni Müsavat"ın əməkdaşı Bayıl yamacına yollanıb və sakinlərin vəziyyəti ilə maraqlanıb. Əraziyə çatdığımızda müşahidə etdik ki, sakinlərin əksəriyyəti küçəyə toplaşıb, aksiya edirlər. Öyrəndik ki, narazı sakinlərə 11 aylıq kirayə pulu təklif olunub, köçürülənlərdir. Onların əksəriyyəti verilən kirayə pulu ilə razılaşmayıb, evlərini tərk etməyiblər. Kirayəyə çıxanlar isə gündüz evlərinə qayıdıb, təmizlik işləri aparır, həyətlərinə nəzarət edirlər. Ərazidə sürüşmə zamanı qurulan polis postu da götürüldüyündən, istənilən şəxs məhəlləyə daxil ola bilir. Ona görə də sakinlər evlərini yiyəsiz qoymaqdan ehtiyat edirlər.

Bildirdilər ki, etirazlarının səbəbi kompensasiyanın miqdarının az olması ilə bağlıdır. Hesab edirlər ki, 6 evin hər kvadratmetri üçün 700 manat ödənilibsə, onlara da eyni qayda ilə hesablanıb kompensasiya veriləcək. Bu məbləğ isə sakinləri qane etmir. Bildirdilər ki, digər yerlərdə necə hər kvadratmetr üçün 1500 manat ödənilibsə, eyni qayda Bayıl üçün də tətbiq olunsun. Əks halda evlərini tərk etməyəcəklər.

"Yeni Müsavat"a danışan Fatma Əliyeva söylədi ki, nəvələri ilə birlikdə aylardır ki, soyuq evdə yaşamağa məcburdur: "Aylardır ki, işıqsız, qazsız qalmışıq. Uçan 6 evin hər kvadratına 700 manatdan pul ödəyirlər. Onlar 5-6 ildir ki, burada yaşayırdılar. Biz isə 50-60 ildir bu evdə yaşayırıq. Hər kəsin öz evi özünə şirindir. Bizə dedilər ki, torpaq sürüşür, ev uçur. Bəs nə oldu? Niyə uçmadı? Burada heç bir təhlükə yoxdur. Kommunal xətlərimizi bərpa etsinlər, evimizdən çıxmırıq. Komissiya gətirib baxsınlar ki, burada hansısa bir təhlükə var, yoxsa yoxdur. Qışın günü bizə dedilər ki, evinizdən çıxın. Atdılar bizi çölə. Bu necə işdir axı. İndi də heç kim gəlib maraqlanmır ki, bu camaat işıqsız, qazsız burada necə yaşayır. İşığımızı, qazımızı, suyumuzu versinlər, çıxaranda da gəlib insan kimi çıxarsınlar. 5-6 evə görə bu qədər camaatı töküblər küçələrə. İndi biz hara gedək? Verdikləri kirayə pulu ilə də heç yerdə ev tapmaq mümkün deyil. Köçürməyin qaydası var. Mənim pulumu normal verin ki, gedib buradakı evimi başqa yerdə qurum. Lap tutalım ki, evimizi uçurdular. Gedib başqa yerdə belə ev qura biləcəyikmi bu yaşda? İllərdir ki, yeməyib, içməyib özümüzə şərait qurmuşuq".



Digər sakinlər də bildirdilər ki, 50 ildir burada yaşayırlar və indiyə qədər hər hansı sürüşmə müşahidə etməyiblər: "İndi də bir hissəyə qaz, su veriblər, bizim məhəllənin digər hissəsinə də deyirlər ki, köçməlisiniz. Necə olur ki, torpaq gələndə camaatın yarısının evini uçurur, yarısını uçurmur. Belə qanun olar?"

Sakin Eldar Muradov da bildirdi ki, yanvarın 24-dən camaatı küçələrə töküblər: "Suyun nəticəsində bir balaca sürüşməyə görə bu qədər camaatı evindən didərgin salıblar. Camaat 40-50 ildir ki, burada yaşayır. İnsanlar özləri üçün lazım olan bəzi əşyalarını aparsalar da, əsas mebelləri çıxarmayıblar. Çıxaranın da mebeli sınıb, dağılıb. İnsanlara xeyli maddi ziyan dəyib. Belə haqsızlıq olmaz axı. Abid Şərifov da deyir ki, gəlib orada torpaqları zəbt ediblər. Mən özüm Zəngilan rayonundan məcburi köçkünəm. 1993-cü ildə mərhum prezident Heydər Əliyevin bizə yaratdığı şərait nəticəsində öz pulumla burada ev tikmişəm. Biz erməni deyilik ki, torpağı zəbt edək. Abid müəllim bu dinc, kasıb camaatı sanki erməni zənn edir. Deyir ki, gəlib torpaq zəbt etmisiniz. Biz Azərbaycan vətəndaşıyıq və ailədə 8 nəfərik. Bəyəm 2 sot torpaqda yaşamaq hüququmuz yoxdur? Onda belə çıxır ki, bu torpaq Abid Şərifovundur, biz də buranı zəbt etmişik. Biz bu torpağı dövlətin bilmişik. Heç qaçqınlıq dövründə bu qədər əziyyət çəkməmişdik. Xahiş edirik ki, səsimizi eşidib bizə kömək etsinlər. Camaatın kommunal xətlərini versinlər, biz kirayə pulu istəmirik. Qayıdaq gələk öz evimizdə yaşayaq".

Sakinlər Abid Şərifovun fikirlərindən narazı olduqlarını söylədilər: "Deyir ki, "Sovetski" camaatı dədə-baba yurdunda yaşayıb, onlara kompensasiya verilib. Bizim də dədə-baba yurdumuz Ermənistanın tapdağı altındadıq. Geri alınsın, gedib orada yaşayaq. İkincisi də burada 50-60 ildir yaşayan ailələr var. Bəyəm onların dədə-baba yurdu başqa yerdir? Ümumiyyətlə, bu nə yanaşmadır axı?"

Sakinlər yekun olaraq bildirdilər ki, onlara ya normal kompensasiya verilsin, ya da kommunal xətləri bərpa olunsun ki, evlərində yaşaya bilsinlər. Söylədilər ki, əks halda etirazlarını davam edəcəklər.

❑ **Əli RAİS.**
**Fotolar və video müəllifindir**





## Bu günə qədər TANAP-ın tikintisinə 5,6 mlrd. dollar xərclənib

**"Bu günə qədər TANAP-ın tikintisinə 5,6 milyard dollar xərclənib". "APA-Economics"in Türkiyənin Əskişəhər şəhərinə ezam olunmuş müxbirinin məlumatına görə, bunu Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Konsorsiumunun baş direktoru Saltuk Düzyol ötən gün keçirdiyi brifinqdə jurnalistlərə bildirib.**

S.Düzyol əlavə edib ki, bu layihə ilə bağlı xarici banklardan 3,75 mlrd. dollar kredit cəlb edilib.

Onun sözlərinə görə, bu layihənin xərclərinin 7,99 milyard dollar olacağı qiymətləndirilir.

"Bu günə qədər Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) tikintisində 82 165 299 insan saat iş işlənilib. İnşaat işlərində 1 mln. 310 min ton kəmər qaynaq edilib", - deyə S.Düzyol vurğulayıb.

## "Bank Respublika"nın sabiq filial müdirinin məhkəməsi başlayıb

**Astara Rayon Məhkəməsində "Bank Respublika"nın Astara rayon filialının külli miqdarda mənimsəmədə və vəzifə saxtakarlığında təqsirləndirilən sabiq müdiri Rövşən Quliyev və bankın digər əməkdaşlarının cinayət işi üzrə məhkəmə istintaqı başlayıb.**

APA-nın xəbərinə görə, prosesdə prokuror ittiham aktını elan edib. R. Quliyev elan olunmuş ittiham üzrə özünü qismən təqsirli bilib.

İttihama görə, R. Quliyev və "Bank Respublika"nın Astara rayon filialının müdiri vəzifəsində çalışarkən ayrı-ayrı vətəndaşların ümumilikdə 2 milyon 400 min manat məbləğində vəsaitini mənimsəyib.

İş üzrə, R. Quliyev də daxil olmaqla, 10 nəfər təqsirləndirilən şəxs, 1000 nəfər zərərçəkmiş və şahid var.

R. Quliyevin barəsində həbs-qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

# Professor Məsud Aşina: “10-20 il sonra azərbaycanlılar tam başqa olacaqlar”

## Dünyanın ən xoşbəxt 3 ölkəsindən birində yaşayan azərbaycanlı tibb professorundan maraqlı açıqlamalar

**Mənim qəhrəmanım 1965-ci ildə Bakıda doğulub. 20 saylı məktəbdə oxuyub. Həndbolla məşğul olub və hətta bədən tərbiyəsi üzrə məktəb şurasının sədri olub. 1982-ci ildə Məsud Aşina Azərbaycan Dövlət Tibb İnstitutunun (hazırda Tibb Universiteti - red.) müalicə-profilaktika fakültəsinə daxil olub və 1988-ci ildə oranı bitirib. Təcili Yardımda internatura keçib və 1989-cu ildə o vaxt 16 yaşı olan qardaşı Səidlə birgə Danimarkaya köçüb.**



Kopenhagendə yarımillik təkrar internaturadan sonra Məsud Aşina sıx surətdə elmlə məşğul olmağa başlayır. Elmə özünün növbəti 5 illik həyatını sərf edir. Nəticə etibarilə 2000-ci ildə PhD dərəcəsi üzrə dissertasiya müdafiə edir və 2003-cü ildə doktorluq dərəcəsi alır. 2006-cı ildə Kopenhagen Universiteti yanında nevrologiya üzrə assosiativ professor olur və universitet klinikasının bazasında işləməyə başlayır. 2014-cü ildə Danimarka Milli Hospitalı və Kopenhagen Universitetinin nevrologiya professoru adına layiq görülür. 2017-ci ildə Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin (International Headache Society) növbəti prezidenti seçilir. “Miqrenin patofiziologiyası” kitabının, beynəlxalq tibbi nəşrlərdə baş ağrıları və miqrenlə bağlı getmiş 400-dən çox məqalənin müəllifidir.

Xanımı Kəmalə Aşina stomatoloq işləyir və rəsmlə maraqlanır. Oğlu Xaqan tibb fakültəsini bitirəcək. Qızı Sara gimnaziyanın birinci kursunda oxuyur. Qardaşı Səid Aşina - Nyu-York Universitetinin assosiativ professorudur. Səid yayda Harvard Universitetinə, daimi işə keçmək istəyir. O, həmçinin baş ağrıları üzrə mütəxəssisdir. Ancaq daha çox epidemiologiyaya köklənib.

Məsud Aşina ilə söhbət zamanı qürbətdə inteqrasiyanın çətinliklərindən, tibb elminin inkişafından, habelə Vətən və optimizmdən danışdıq:

***- Sizin Danimarka cəmiyyətinə inteqrasiya təcrübənizdən danışmaq istərdim. Ola bilsin, o, inteqrasiya çətinlikləri yaşayan emiqrantlarımız üçün faydalı olsun. Siz axı sovet dövründə, Sovet İttifaqından köç eləmisiniz. Ölkəniz - Azərbaycan SSR sizin üçün qəfildən müstəqillik qazananda siz artıq burada idiniz və qısa müddətdə çox şeyə nail oldunuz. Əlbəttə ki, geriyə qayıtmaqdan söhbət gedə bilməzdi. Vətəninizdə dəhşətli hadisələr baş verirkən siz belə uzaq diyarlarda necə kök sala bildiniz? Bütün bu proseslər qəliz adaptasiya dövründə sizə necə təsir elədi?***

- Ən birinci, mən başa düşdüm ki, istənilən cəmiyyətə açar - yerli dili bilməkdir. İkincisi, gərək öz qarşına məqsəd qoyasan və belə bir suala aydın cavab tapasan ki, mən bu cəmiyyətdən nə gözləyirəm, özümü illər sonra necə təsəvvür edirəm? Mənim mücərrəd hisslər, həyəcan və düşüncələr üçün yetərincə zamanım olub. Anlayırdım ki, ilk işim yeni mühitdə oturuşmaq olmalıdır və yalnız bundan sonra özünə, yaşayacağın yeni ölkəyə və həmçinin, tarixi vətəninə faydalı ola bilərsən. Ona görə də mən dərhal peşəmə uyğun gələn istənilən bir işi axtarmağa başladım. Tezliklə onu tapdım və fəal şəkildə yerlilərlə ünsiyyətdə olmağa, dili inkişaf etdirməyə, adamların mentalitetini öyrənməyə başladım.

### Məsud Aşina: “Danimarkada uğurun əsas rəhni kritik düşüncə və debatlardır”

Danimarka dili tələffüzcə mürəkkəbdir. Odur ki, tələffüz və yazılı danışıq kurslarına yazılası oldum. Gündüz işləyir, axşamlar isə məşğələlərə gedirdim. İlk olaraq könüllülük əsasında, heç bir əməkhaqqısı olmayan iş seçdim: hər gün xəstəxanaya gəlir, iclaslarda iştirak edir, xəstələrə baş çəkirdim, mənə tapşırılan bütün işləri görürdüm. Tibbi mühitdə Danimarka dilini öyrənmək mənim üçün əlavə üstünlük idi, nəinki əməkhaqqı. Bir il sonra mən artıq imtahan verdim. İmtahan sirrozun başlı-başına buraxılan formasından əziyyət çəkən pasiyentin qəbulu, müayinəsi, müalicənin təyinatı və onun uçotu ilə bağlı idi. İmtahandan sonra əlimdə dəstə-dəstə sənədlər həkim qəbulu otaqlarına başçəkmələr başladı. Təmaslara girmək, özünü göstərmək, işəgötürənlərdə pozitiv təəssürat yaratmaq lazım gəlirdi. Axı mənim adım, diplomum onlara heç nə demirdi. Onlar namizəd haqda əlavə informasiyaya, onlarla canlı təmasa ehtiyac duyurdular - hansı təmaslar ki, “gəlmə” haqda bütün stereotipləri, ştampları kənara atmağa, məni ciddi şəkildə qiymətləndirməyə kömək elədi.

Yeri gəlmişkən, mənə ilk işi yarım il qabaq məndən həmin o imtahanı qəbul edən həkim verdi. Bir ay sonra artıq başqa bir professorun qapısını döydüm və cərrahiyyədən imtahan verdim. Mənim elmi karyeramın ilk illərində üst-üstə düşən iki maraqlı məqam budur. Ancaq harda işləyirdimsə işləyim, məni bir an belə bu fikir sakit buraxmırdı: mən nevrologiya ilə məşğul olmalıyam, məndə yalnız buna dərin həvəs vardı. Milli Hospitalda nevrologiya professoru ilə söhbət ömürlük yaddaşımda qaldı. Professor ilk olaraq mənə bunu dedi: “Mən sizi elə görmək istəyirdim ki. Ona görə sizi söhbətə dəvət eləmiş oldum”. Sən demə, onu mənim cavanlığım və karyerada sürətli yüksəlişim heyran edibmiş. “Danimarkada tibbə 16 yaşında gəlmirlər və belə tez həkim olmurlar. Burada nəsə var və siz qəbul edildiniz,” - demişdi.

***- Nə vaxtsa özünüzə qarşı, tutaq ki, peşəkar həyatınızda diskriminasiya hiss etmisizmi?***

- Nəinki hiss eləməmişəm, ümumiyyətlə, görməmişəm. Ancaq mən məişət diskriminasiyasını həmişə iqnor eləmişəm və çox tez də yaddan çıxarmışam. Bunların hamısı həyatın xırdalıqlarıdır. İnsan həmişə özününkülərə - ailə üzvlərinə, qohumlarına, xalqına daha yaxın olur. Bu, tamamilə təbiidir və belə şeylərdə ilişib qalmağa dəyməz. Azərbaycanda kimin xoşuna gələr ki, kimsə kənardan öz nizamnaməsi ilə gəlsin və öz qaydalarını bərqərar eləmək istəsin? Biz buna avropalılardan daha sərt reaksiya verərik, burası dəqiqdir.

Peşəkar həyatımda diskriminasiya ilə rastlaşmamışam. Hələ karyeramın əvvəlində mənimçün çox mühüm bir söhbət olmuşdu - hansı məsələ ilə bağlı ki, yalnız bir iddiaçı var idi, o da özüm idim. Yerdə qalanların hamısı yerli adamlar idi. Komissiya seçimi mənim üzərimdə elədi. Bu da yalnız o demək idi ki, bu ölkənin tibb camiyəsində mövhumata yer yoxdur. Danimarka gerçəkdən də hər kəsə inkişaf eləmək, artmaq şansı verir.

Anlaşılmazlığın daha bir səbəbi bilirsizmi nədir? Bu - Şərq insanının subordinasiya anlayışına münasibəti və ya onun iyerarxik dünya görüşüdür, hansı üstünlüklər ki, Danimarkada, sadəcə, işləmir. Burada işləməyə başlayanda dərk eləmək lazımdır ki, kiçik tibb personalı - ora-bura qaçan oğlan və qız uşaqları deyil ki, onlara əmr edə və nazları ilə oynamaya biləsən. Belə münasibət burada, sadəcə, mümkünsüzdür. Əgər sən hər halda özünü məqbul aparmamaq qərarı verirsənsə, o zaman etiraz aktı ilə üzləşirsən və bunu özünə, gəlmələrə qarşı diskriminasiya kimi qələmə verirsən. Hətta kiçik tibb personalına əmr verməyə vərdiş eləmiş alman həkimləri burada və ya İsveçrədə vəzifəsindən, mövqeyindən asılı olmayaraq həmkarlar arasında bərabərlik dozasından rahatsız olurlar. Hamı bir-birinə “sən” deyir.

**- Bizim insanın emiqrasiyaya qədərki gündəlik həyatında adətən spontanlığa, boş-bekarçılığa çox yer verilir və birdən sərt struktur çərçivələrinə düşəndə bizim insanın öz-özü ilə, cəmiyyətlə konflikti başlayır, məyusluq özünü göstərir. İdentikliklə bağlı tez-tez şüuraltı da olsa, üzücü düşüncələrə yol açılır. “Hər halda biz başqayıq” deyirlər. Vətən xiffəti düzgün seçimdə şübhələri didib-dağıdır. Mən bir neçə gənc tanıyıram ki, məhz məişət fərqliliklərinə dözməyərək Azərbaycana qayıdıblar. Avropa onlardan ötrü oriyentir ola bilmir, onlar məyusdurlar və orada özlərini tapa bilmirlər. Bu, sanki müasir dövrün epidemiyasıdır...**

- Onlar tələsiblər. Çünki Azərbaycan da tezliklə başqa olacaq. O, artıq başqadır. Bir çox şeylər ki, bütün həyatımız boyu bizə “təmiz azərbaycansayağı” görünüb, artıq yoxdur. Di gəl, inersiya üzrə biz Bakıya inanmağa davam edirik ki, orada adamlar qapını qıfıla bağlamır, bütün qonşular bir-birinə inanır və Çinar altında çay içirlər. Dəfədən-dəfəyə həmin o spontanlıq, boş-bekarçılıq azalır. Başa düşmək lazımdır ki, biz də dəyişir, zamanla ayaqlaşırıq. Azərbaycanlılar tədricən daha mütəşəkkil olurlar. Hətta avtobuslar cədvəl üzrə hərəkət edəndə beyinlərdə inqilab baş verir. Addım-addım, 10-20 il sonra azərbaycanlılar tam başqa, yəni daha yaxşı olacaqlar. Nə qədər radikal olsa belə, müxtəlifliklərdən qorxmaq lazım deyil. Biz özümüz də Avropada öz ətrafımıza təsir edirik. İş yerində ünsiyyət zamanı mənim azərbaycanlı temperamentim çoxlarına xoş gəlir, həmkarlar bunu qiymətləndirirlər. Onlara elə gəlir ki, mən onların cəmiyyətlərinə yeni, əlavə nəsə bəxş edirəm - lap olsun ki, ekzotik xarakterli. Əsas odur ki, yenilik işləyir və sistemə harmonik şəkildə uzlaşır. Onlar bunda pozitiv görürlər.

***- Yadıma gəlir ki, 3 il qabaq Kopenhagendə söhbət zamanı siz belə bir ifadə işlətmişdiniz: “Danimarkalıların kritik düşüncə tərzi məni valeh edir”. Fürsətdən istifadə edib soruşmaq istərdim: Sizcə, Danimarkanı Avropada və Skandinaviya ailəsində fərqli edən nədir? Onun “fişka”sı nədir?***

- Danimarka - unikal ölkədir, xüsusən də ictimaiyyət elmi ilə məşğul olanlar üçün. Sosioloqlar bu ölkənin özəlliklərini öyrənməkdən zövq alardılar. Şübhəsiz ki, suallara cavablar var - necə olub ki, onlar belə güclü inkişaf ediblər, xoşbəxtlik reytinqlərində daima birinci üçlükdə qərar tuturlar? Fikrimcə, izah mədəni radikallıqda axtarılmalıdır. Məsələ ondadır ki, onlar öz mentalitetlərini inqilabi yolla dəyişdilər, onu sındırdılar.

Sizin təbirinizcə desək, Danimarkanın fişkası - onun ictimai debatlar ənənəsindədir. Onlar həmişə və hər yerdə debat edir və inanırlar ki, həqiqət mübahisələrdən doğulur. Onlar bundan qorxmurlar. Çünki bu, bütün sahələr üzrə inkişafa təkan verir. Sayı 6 milyona çatmayan əhali və hər şeydə belə fantastik inkişaf səviyyəsi! Danimarkada uğurun rəhni məhz kritik düşüncə və debatlardır. Əlbəttə ki, onların qabarıq şəkildə özünü göstərən həmrəylik hissi kimi özəlliyini də unutmaq olmaz. Danimarkalılar prinsip etibarilə razılaşa bilmirlər ki, kimsə kasıbçılıq həddindən aşağı yaşaya bilər. Sosial müdafiə nəhəng xərclər, müvafiq olaraq böyük vergilər tələb edir. Ancaq danimarkalılar deyinsələr belə, onlar üçün sevimli olan bu sistemin fəaliyyət göstərəcəyi düşüncəsi ilə onu ödəməyə hazırdırlar.

Belə bir situasiya təsəvvürə gətirin. Mən miqrenlə bağlı eksperimentlər keçirirəm və bundan ötrü kənardan könüllülər cəlb edirik, onlarda süni başağrıları yaradırıq. Mən onlardan soruşuram: nədən belə eksperimentlərə razı olursunuz, axı, mən sizdə başağrısı yaradıram? Cavab verirlər ki: “Biz bura ona görə gəlirik ki, başqaları əzab çəkməsin, bizim uşaqlar belə şey yaşamasınlar. Ona görə istəyirik, siz bu bəlaya qarşı vasitə tapasınız”.

### “Bu sistemin tərkib hissəsi olmaqdan qürur duyuram”

Mən bunu yüksək dərəcədə altruizm (başqalarının rahatlığı naminə özünə əziyyət vermək - red.) adlandırıram. Həmrəylik və cəmiyyət qarşısında məsuliyyət hissi. Etiraf edim ki, belə bir sistemin tərkib hissəsi olmaqdan qürur duyuram.

*(Davamı olacaq)*

**Söhbətləşdi: Əliəkpər Əliyev, yazıçı, İsveçrə**

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

# Vəzifəli şəxsləri şantaj ediblər- reket jurnalistlərin məhkəməsində şok ifadə

## “Bizim dövr” qəzetinin baş redaktoru Surxay Əliyev, müavini Hikmət Nəcəfli, Gülbəniz Əliyeva, İlahə Qasımova, Sevinc Məmmədsalayeva və Maarif Abbasovun cinayət işi üzrə məhkəmə prosesi davam edib

**Musavat.com-un məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə Sevinc Məmmədsalayevanın ifadəsi elan edilib.**



O, istintaqa ifadəsində bildirib ki, 2002-2006-cı illərdə “Ədalət” qəzetində, 2006-2013-cü illərdə “Haqqın səsi” qəzetində, sonra isə “Bizim dövr” qəzetində qeyri-rəsmi işləyib: “2014-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə hədə-qorxu gəlməkdə ittiham edilib 6 il müddətinə azadlıqdan məhrum edilmişəm. Həbs edilməyimin səbəbkarı birbaşa Surxay Əliyev və Hikmət Nəfəclidir. Çünki onlar məni məcbur edirdilər ki, kimlərisə şantaj edim. O vaxt həyat yoldaşımdan boşanandan sonra bir nəfər jurnalistlə sevgi münasibətləri yaşamışam. Aramızda qeyri-rəsmi münasibətlər olub. Daha sonra ondan ayrıldım. Surxay məni otağına çağırıb təhqir etdi, həmin jurnalistlə olan intim münasibətlərimi açıqlayıb hamının yanında biabır edəcəyini dedi. Sonra dedi ki, gözəl qadınsan, bundan sonra mənim üçün işləyəcəksən, vəzifəli şəxslər və biznesmenlərlə görüşüb intim münasibət yaşayacaqsan və onları gizli videoya çəkib şantaj edəcəksən. Məcbur qalıb razılaşdım”.

Prosesdə Sevinc Məmmədsalayevanın hansı epizodlarda iştirak etdiyi, hansı vəzifəli şəxslərlə münasibətdə olduğu və şantaj etdiyi açıqlanıb. Lakin bu zaman prosesdə iştirak edən təqsirləndirilən şəxslərin vəkilləri bu epizodlarda intim olduğu üçün prosesin qapalı keçirilməsini istəyib. Hakimin göstərişi ilə jurnalistlər zaldan çıxarılıb və iclas qapalı keçirilib.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimaiyyətlə Əlaqələr Şöbəsinin yaydığı məlumata görə, DTX əməkdaşlarının keçirdiyi əməliyyat zamanı “Gündəlik Bakı” qəzetinin baş redaktoru Habil Vəliyev, “Bizim dövr” qəzetinin baş redaktoru Surxay Əliyev və onun müavini Hikmət Nəcəfli saxlanılıb. Məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarında dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər DTX-da araşdırılarkən Azərbaycan Respublikası ərazisində “reket” nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb. DTX tərəfindən aparılan araşdırmaların nəticələri üzrə hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə belə tədbirlərin keçirilməsi faktları üzrə cinayət işi başlanılıb.

G.Əliyeva, İ.Qasımova və M.Abbasovun barəsində həbs-qətimkan tədbiri seçilməyib. S.Məmmədsalayeva isə daha əvvəl hədə-qorxu ilə tələb etmədə təqsirləndirilərək 6 il müddətinə azadlıqdan məhrum edilib. O, hazırda 4 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkir.

Daha sonra “Gündəlik Bakı” qəzetinin baş redaktoru H.Vəliyevin cinayət işi ayrıca icraata ayrılıb və Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Fikrət Qəribovun sədrliyi ilə baxılır.

# Kiçik və orta sahibkarların hansı vergiləri azaldılsın...

## Ekspert: “Ərəb ölkələrində vergi yükü 14-17 faiz arasında dəyişir, qonşu Gürcüstanda 16,5 faiz, Azərbaycanda isə 39,8 faizdir”

**Vergilər naziri Mikayıl Cabbarov bildirib ki, Azərbaycanda Vergi Məcəlləsində və bir sıra digər qanunvericilik aktlarında təkmilləşdirmənin həyata keçirilməsi istiqamətində işlər aparılıb. Nazirin sözlərinə görə, kiçik və orta sahibkarlığa tətbiq edilən vergi yükünün, vergi inzibatçılığının əhəmiyyətli dərəcədə yüngülləşdirilməsi və bununla da ölkədə sahibkarlıq fəaliyyətinə dəstək verilməsi əsas tapşırıqlardandır (APA). Azərbaycanda vergi yükü sahibkarlığın inkişafı baxımından nə qədər əlverişlidir? Ölkədə kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq üçün hansı vergi növləri üzrə azalmaya gedilməlidir?**

“Yeni Müsavat”a danışan **iqtisadçı-ekspert Rəşad Həsənovun** dediyinə görə, Azərbaycanda vergi yükü kifayət qədər ağırdır: “Nəzərə alsaq ki, fiskal gəlirlərin böyük bir qismi neft gəlirləri hesabına formalaşır, belə bir ölkədə vergi yükünün 39,8 faiz olması kifayət qədər yüksək göstəricidir. Müvafiq neft hasilatı ilə məşğul olan ölkələrdə - deyək, Yaxın Şərqin Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı kimi ölkələrində vergi yükü 14-17 faiz arasında dəyişir, qonşu Gürcüstanda 16,5 faiz, Azərbaycanda isə 39,8 faizdir. Hətta kapitalizmin daha sərt formalaşdığı Böyük Britaniya və ABŞ-da belə vergi yükü Azərbaycandan azdır. Bu da Azərbaycanda qeyri-neft iqtisadiyyatının zəif inkişafında və qeyri-leqal biznesin çiçəklənməsində əsas səbəbdir. Əgər biz bu gün qeyri-neft iqtisadiyyatının şaxələndirilməsini və inkişafını, eyni zamanda ixrac qabiliyyətinin artırılmasını istəyiriksə, alternativ maliyyə imkanlarının formalaşdırılmasına çalışmalıyıq. Bu istiqamətdə atılacaq addımlardan ilki vergi yükünün azaldılması olmalıdır. Çünki ölkədə maliyyəyə çıxış imkanları çox məhduddur. Bunun da əsasını bank sektoru təşkil edirdi. Bu gün isə bank sektoru ölkə iqtisadiyyatının maliyyələşdirilməsində iştirak etmir. Belə bir vəziyyətdə vergi yükünün azaldılması investisiyanı təşviq edə bilər”.

Mütəxəssisin sözlərinə görə, Azərbaycanda eyni zamanda xarici investisiyanın cəlbinə böyük ehtiyac var: “Çünki iqtisadiyyat işlənməmiş xam iqtisadiyyatdır, təcrübə yoxdur. Eyni zamanda ilkin kapitalın formalaşdığı son 25 il ərzində qeyri-bərabər şəraitdə kapital daha çox oliqarxların əlində cəmləşib ki, onlar da kiçik və orta sahibkarlıq istiqamətində hər hansı bir maliyyələşmə siyasəti aparmırlar. Bu baxımdan Vergilər Nazirliyinin bu gün bu işə başlaması hətta gecikmiş addım da sayıla bilər. Çünki bu işə 2008-ci ildən sonra başlanmalıydı. O zaman başlanmamışdısa, heç olmasa 2014-cü ildən başlanmalıydı. 2016-cı ilin dekabrında Vergi Məcəlləsinə 200-dən artıq dəyişiklik edildi. 2017-ci ildə biz gördük ki, vergi yükündə heç bir azalma baş verməyib. Bu, Dünya Bankının hesabatında da əksini tapdı. Bu gün artıq bu istiqamətdə mövqeyin ortaya qoyulması müəyyən mənada pozitiv qiymətləndirilə bilər. Amma paralel olaraq iqtisadiyyatın liberallaşması və qanunun aliliyinin təmin olunması məsələləri var. Yəni təkcə vergi yükünü azaltmaqla Azərbaycanda kiçik və orta sahibkarlığı, bütövlükdə biznes və investisiya mühitini inkişaf etdirmək, xarici investisiyanın axınını təmin etmək mümkün deyildir. Bu baxımdan da, paralel olaraq, struktur islahatları həyata keçirilməli, vergi yükünün azaldılması maliyyəyə çıxış imkanlarının genişləndirilməsi kontekstindən qiymətləndirilməlidir”.

Konkret hansı istiqamətlərdə vergi yükünün azaldılmasına gəlincə, ekspert bunların bir qisminin 2016-cı ildə vergi islahatlarını nəzərdə tutan strateji yol xəritəsinin təsdiq olunmasına dair fərmanda əksini tapdığını deyir: “Fərmanda qeyd olunur ki, Azərbaycanda diferensiallaşdırılmış əlavə dəyər vergisi tətbiq olunsun. Lakin bu günədək də bu addım atılmayıb. Digər tərəfdən, sadələşmiş verginin indiki səviyyəsi ilə belə, iqtisadi fəaliyyətlərin böyük bir qismi qeyri-leqal həyata keçirilir. Biz təklif edirik ki, sadələşmiş vergi də qeyri-nağd ödənişləri, leqallığı təşviq edən formada diferensiallaşmış olsun. Yəni qeyri-nağd dövriyyə nağd dövriyyədən ikiqat aşağı dərəcə ilə vergiyə cəlb olunsun. Sahibkarların yükünü ağırlaşdıran daha bir səbəb sosial sığorta ödənişlərinin yüksəkliyidir. 22 faizlik sosial sığorta ödənişinin üzərinə bu ilin yanvarından 0,5 faizlik işsizliyə görə sığorta haqqı da əlavə olundu. Bu isə sahibkarlara əlavə təzyiq yaradır. Hesab edirik ki, bu yükün də azaldılmasına ehtiyac var. Əmək bazarı təhlil olunmalıdır. Modelləşmə aparılmalıdır. Düşünürəm ki, optimal sosial sığorta yükü sahibkar üçün 11-12 faiz, işçi üçün 3 faiz olmaqla, cəmi 15 faiz təşkil etməlidir. Beləliklə də, sahibkarların yığım vəsaitlərini artırmaq imkanı yaranır. Son nəticədə isə bu vəsaitlər mənfəət normasının yüksəlməsi fonunda yenidən iqtisadiyyata yönəlir: investisiya qoyuluşlarını artırır, innovasiyaların tətbiqini, daha keyfiyyətli istehsal texnologiyalarının prosesə cəlb olunmasını təşviq edir. Beləliklə də, Azərbaycan iqtisadiyyatı şaxələndirilər, ixrac və rəqabət qabiliyyəti güclənər, əməyə tələbatın artması işsizlik və yoxsulluqla bağlı makroiqtisadi parametrlərə də öz müsbət təsirini göstərmiş olar”.

❑ **Dünya Sakit, “Yeni Müsavat”**

**Elan**

**Bakı Mühəndislik Universitetinin tələbəsi Nağıyev Abbas Etibar oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 83 (6972) 18 aprel 2018

**Son günlər əhali arasında dollara tələbatın artması , buna paralel olaraq bankların da müştərilərə dollar satmaqdan imtina etməsi valyuta bazarında ajiotaj yaşanmasına səbəb olub. Qonşu ölkələrdə dolların bahalaşması haqda xəbərlərdən narahat olan vətəndaşlar əllərindəki vəsaiti dollara dəyişmək istədiyindən tələbat artıb. Hətta psixoloji təzyiqlər yaranıb ki, rubl və lirədən sonra manat da dollar qarşısında dəyər itirə bilər. Banklarda isə dollar almaq istəyən vətəndaşlara kassada yetərli valyuta olmadığı deyilir. Digər tərəfdən, bankların dolların alış qiymətini artırması da əhalidə şübhə oyatmağa başlayıb.**

# Dollar ajiotajını banklar yaradır

## Natiq Cəfərli: "Birdən-birə tələbatın artması banklarda yaranmış sükutu pozdu və..."



**Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri İbrahim Alışov** isə mətbuata açıqlama verərək bildirib ki, Mərkəzi Bank bankları kifayət qədər valyuta ilə tam təmin edir: "Son bir həftə ərzində Azərbaycanla tərəfdaş ölkələrdə, xüsusən də Türkiyə və Rusiyada milli valyutaların kəskin volatilliyi Azərbaycanda da bir psixoloji gərginlik yaradıb. Amma bankların heç birində nağd valyutaya olan tələbin qarşılanmaması kimi bir hal yoxdur. Bu, sadəcə, psixoloji amildir. Son bir həftə ərzində adambaşına düşən valyuta alışı 800-1300 dollar arasında dəyişir. Bu onu deməyə əsas verir ki, bu yalnız əhali qrupu arasında yayılan psixoloji gərginliklə bağlıdır. Azərbaycanda devalvasiya üçün heç bir makroiqtisadi əsas yoxdur".

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **iqtisadçı-ekspert Natiq Cəfərli** bildirdi ki, son dövrlərdə ətraf ölkələrdə çox ciddi proseslər gedir: "Qonşu ölkələrin hamısında milli valyutalar dəyərdən düşüb. Səbəblər müxtəlif olsa da, proses eynidir. Rusiya rublu, Türkiyə lirəsi çox sürətlə dəyərdən düşdü, Qazaxıstan təngəsində 10 faiz ucuzlaşma oldu, İran rialı təqribən 15-20 faiz ucuzlaşdı. Bütün ətraf ölkələrdə, Azərbaycanın ticarət tərəfdaşı olan ölkələrdə milli valyutalar dəyərdən düşüb. Hər bir ölkədə səbəblər müxtəlif ictimai, siyasi, iqtisadi amillərdən qaynaqlansa da, faktiki olaraq belə bir dalğa yarandı. Bu da Azərbaycanda insanlar arasında belə bir narahatlığa səbəb oldu ki, manatla bağlı da oxşar qərar verilə bilər. Bunun ardınca Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov çıxış elədi, heç bir devalvasiya olmayacağını söylədi. Bu da cəmiyyətdə əks effekt doğurdu. Çünki ötən iki devalvasiyaların həmən öncəsində Mərkəzi Bank rəhbəri bu cür bəyanat vermişdi, ancaq tam əksi baş vermişdi. Bu da Mərkəzi Bankın institusional olaraq nüfuzdan düşdüyündən xəbər verir və insanlar bu bəyanata da inanmadılar".

Natiq Cəfərli diqqətə çatdırdı ki, ətraf ölkələrdə gedən proseslərlə əlaqəli olaraq valyuta alınmasına, sərbəst manat kütləsinin yenidən dollara çevrilməsinə start verildi: "Banklar isə buna hazır deyildilər. Çünki artıq bir ilə yaxındır ki, inzibati yollarla dollar-manat məzənnəsi sabit saxlanılır. Manat digər valyutalara nisbətdə sabit olmasa da, dollar-manat məzənnəsi əsas götürülür. Çünki bu qərarın həm də siyasi səbəbləri olduğu üçün uzun müddətdir ki, inzibati qaydada tənzimlənirdi. Banklar da adət etmişdilər ki, gündəlik tələbat 50 min dollar civarında olsun. Birdən-birə tələbatın artması banklarda yaranmış bu sükutu pozdu. Artıq insanlarda daha çox valyutaya tələb yarandı deyə banklarda olan dollar yetərli olmadı. Mərkəzi Bank buna çox gec reaksiya verdi. Dünəndən başlayaraq bankların valyuta ehtiyatını artırmaq və satışları təmin etmək üçün dolları daha çox verməyə başladı. Lakin bu, ajiotajı daha da artırır. Bir neçə gün banklarda valyuta satışında problemlər yaşananda, əhali arasında dolların tapılmaması ilə bağlı söz-söhbət genişləndə tələbat daha da artır, əhalinin banklara axını güclənir".

N.Cəfərlinin fikrincə, indiki şəraitdə manatın dollara qarşı dəyər itirməsinə elə ciddi bir iqtisadi səbəb yoxdur: "Azərbaycan çox primitiv bir iqtisadi modelə malikdir və əsasən neft qiymətləri ilə bağlıdır. Neft hazırda kifayət qədər yüksək qiymətlərə satılır, Azərbaycan hökumətinin gözləntilərindən daha da yüksəkdədir. Hökumət bu il nefti 45 dollardan götürdü, ancaq hazırda Azərbaycan nefti 72-73 dollara satılır. Yəni ölkəyə kifayət qədər böyük həcmdə dollar daxil olur. Ona görə də yaxın aylarda devalvasiya olması ehtimalı çox aşağıdır. Ancaq ilin sonuna yaxın dünyada və qonşu ölkələrdə gedən proseslərə paralel olaraq manata təzyiqlərin artması baş verə bilər. Bu ilin sentyabrından başlayaraq bu təzyiq daha çox ola bilər.

İqtisadçı-ekspert onu da vurğuladı ki, qonşu ölkələrdə milli valyutanın dəyərdən düşməsi Azərbaycanın həmin ölkələrlə ticarətini də zəiflədəcək: "Rusiya ilə bağlı ticarət dövriyyəsində mənfi saldo artacaq. Hazırda da mənfi saldo müşahidə olunur. Rusiyadan aldığımız məhsulun həcmi bu ölkəyə satdığımız məhsuldan daha çoxdur. Rublun dəyərdən düşməsi bu ölkənin bizə satdığı məhsulların həcmini də artıracaq.

Türkiyəyə isə əsasən qaz və neft məhsulları satırıq. Ancaq Türkiyədən 1000 adda məhsul alırıq. Ərzaq məhsullarından başlamış, geyimə, texnikaya qədər müxtəlif məhsullar idxal edirik. Türk lirəsinin dəyərdən düşməsi idxalı daha da cəlbedici hala gətirəcək. Bu da yeni cücərməkdə olan yerli istehsalı daha da azaldacaq. Qonşu ölkələrdə gedən proseslərin orta və uzunmüddətli dövrdə Azərbaycana daha böyük təsirləri olacaq. O zaman da hökumət məcburən manatın məzənnəsində yumşalmaya gedə bilər".

**❑ Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Statistika Komitəsinin tikinti sektoruna dair açıqlaması etiraz doğurdu

## Ramil Osmanlı: "Komitənin rəyi ilə razılaşmaq mümkün deyil, tikinti və infrastruktur layihələrinə ayrılan dövlət vəsaitlərinin həcmi təxminən 25 faizədək artıb"

**Dövlət Statistika Komitəsi bu ilin birinci rübündə Azərbaycanda ümumi daxili məhsul (ÜDM) istehsalına dair göstəriciləri açıqlayıb. Qurumun bununla bağlı yaydığı məlumata görə, 2018-ci ilin yanvar-mart aylarında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrünə nisbətən 2,3 faiz artaraq 17185,1 milyon manata çatıb.**

Komitə bildirir ki, bu dövrdə, tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib. Belə ki, informasiya və rabitə sahələrində əlavə dəyər istehsalı 13,2 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 12,5 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 7,1 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 4,2 faiz, sənaye və ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrinin hər birində 2,6 faiz, digər xidmət sahələrində 1,3 faiz artıb, tikintidə isə 11,2 faiz azalıb.

Onu da qeyd edək ki, 2016-cı ildə Azərbaycanda tikinti sektorunda 6004,4 milyon manatlıq məhsul istehsal olunub. 2017-ci ildə bu göstərici 6,6 milyard manata yüksəlib.

2017-ci ilin birinci rübündə ÜDM-in 1187,8 milyon manatı tikintidə istehsal olunub. Statistika Komitəsinin məlumatından isə aydın olur ki, bu il istehsal bundan 11,2 faiz az olub.

Maraqlıdır, hökumət ötən ildən tikinti sektorunda azalmanı dayandırmaq üçün iki mühüm layihənin icrasına başlayıb. Bunlardan birincisi Mənzil İnşaatı Dövlət Agentliyi vasitəsilə başladılan sosial evlər layihəsidir. Artıq yaxın həftələrdə bu layihə çərçivəsində inşa olunan mənzillərin ehtiyacı olanlara satışına başlanması nəzərdə tutulur. Layihənin icrasına dövlət tərəfindən 300 milyon manata yaxın vəsait yönəldilib. Həyata keçirilməsinə başlanan ikinci layihə köhnə yaşayış evlərinin sökülərək yerində çoxmərtəbəli binaların tikilməsini nəzərdə tutan pilot layihədir. Hansı ki, paytaxtın bir neçə rayonunda bu layihənin icrası çərçivəsində onlarla bina sökülərək yenilərin icrasına başlanılıb. Statistika Komitəsinin açıqladığı məlumat faktiki olaraq hökumətin tikintidə azalmanın qarşısını almaq üçün həyata keçirdiyi tədbirlərin, hələ ki, lazımi effekti verməediyi rəyini formalaşdırır.




Qeyd edək ki, müstəqil ekspertlər Statistika Komitəsinin açıqladığı rəqəmlərlə razılaşmırlar. Belə ki, **"MBA Group" Konsaltinq Şirkətinin baş direktoru, daşınmaz əmlak sahəsində ekspert Nüsrət İbrahimovun** "Yeni Müsavat"a bildirdiyinə görə, tikinti sektorunda azalma deyil, əksinə, artım baş verib: "Onlar hesablamanı başqa metodologiya ilə aparırlar. Yəni tam başa çatmış, dövlət komissiyası tərəfindən təhvil alınmış tikililəri qeydə alırlar. Biz isə tikintinin bünövrəsi qoyulan kimi onu qeydə alırıq. Və bizim hesablamalarımıza görə, ötən ilin birinci rübünə nisbətən bu ilin eyni dövründə Bakı şəhəri üzrə yaşayış mənzillərinin tikintisi sahəsində ciddi - hardasa 30 faizədək artım var. Bu, bilavasitə pilot layihələrin hesabınadır. Məsələn, keçən il biz pilot layihələr üzrə 3 bina qeydə almışdıq, indi onların sayı 30-a çatıb".

**"Əmlak Bazarı İştirakçıları" İctimai Birliyinin icraçı direktoru Ramil Osmanlı** da hesab edir ki, rəsmi statistika tikinti sahəsindəki real vəziyyəti əks etdirmir: "Komitənin rəyi ilə razılaşmaq mümkün deyil. Çünki ötən ilin ikinci yarısından bəri tikinti və infrastruktur layihələrinə ayrılan dövlət vəsaitlərinin həcmi təxminən 25 faizədək artıb. Bundan əlavə, real sektora investisiya qoyuluşları da artıb. Bu halda azalmaya dair rəqəm necə əldə olunub, bunu deyə bilməyəcəm. Amma görünən odur ki, real vəziyyətlə rəsmi rəqəmlər arasında ziddiyyət var".

Ekspertin sözlərinə görə, çoxmənzilli yaşayış evlərinin tikintisində ötən ilin birinci rübü ilə müqayisədə haradasa 14-15 faiz artım var: "Fərdi evlərin tikintisi, infrastruktur layihələri bura daxil deyil".

**❑ DÜNYA,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

Son səhifə

N 83 (6972) 18 aprel 2018




## Cib telefonu beyinə dalğa göndərir və insan kökəlir...

**Aparılan bir araşdırmaya görə, cib telefonları beyindəki doyma hissini yox edərək şişmanlığa səbəb olur. Türkiyənin Qazi Universiteti Tibb Fakültəsi araşdırmaçıları müəyyənləşdiriblər ki, cib telefonlarındakı elektromaqnit sahə beynin yemək yeyərkən doyma hissini verən MSH adlı hormonda azalmaya səbəb olur.**

Buna görə də cib telefonunun yaydığı şüalara müəyyən müddət məruz qalanda, yemək yeyərkən ''doyma'' duyğusu normaldan daha gec inkişaf edir. Toxluq hissinin gecikməsi sayəsində isə fasiləsiz yemək ehtiyacı şişmanlığa səbəb olur. Təcrübə öncə heyvanlar üzərində aparılıb. Heyvanların aclıq-toxluq hormonlarından ortaya çıxan dəyişikliklər onların çəkisinə təsir edib. Təcrübə zamanı heyvanların bir qrupuna bir ay boyunca 1800 MHz, ikinci qrupa bir ay boyunca 2100 MHz, üçüncü qrupa isə iki ay ərzində 2100 MHz radiofrekans tətbiq edilib. Nəticədə daha çox şüaya məruz qalan heyvanlarda doyma hissi azalıb. Doyma hissi azaldığı üçün isə onlarda fasiləsiz yemək ehtiyacı özünü göstərib. İş nəticələri elm dünyasına ilk dəfə təqdim olunub və bu, beynəlxalq jurnallarda nəşr olunacaq.

# Bananın içindən əqrəb çıxdı

**İngiltərədə yaşayan 67 yaşındakı qadın məşhur marketlər şəbəkəsi olan ALDI-dən aldığı paket bananın içindən əqrəbin çıxması ilə həyatının şokunu yaşadı. Linda Pollard adlı qadın içində 5 ədəd banan olan bağlı bir paketin içindən əqrəbin çıxdığını görüb, marketə gedib və şikayətini bildirib. Supermarket şəbəkəsi isə üzr istəyərək, qadına yaxşı niyyət əlaməti olaraq 10 sterlinq dəyərində bir kupon verib.**



Hadisəni araşdıran mütəxəssislər banan paketinin içindən çıxan bananların gəldiyi Orta Amerikadakı Belizedə geniş yayılan, slenderbroun tipli bir əqrəb olduğunu açıqlayıblar. Bundan başqa, əqrəbin zəhərli bir növə aid olduğu da bildirildi. Pollard isə qorxusunu hələ də üstündən ata bilmədiyini və evdə ikinci bir əqrəb olması ehtimalını düşündüyü üçün daim evdə künc-bucağı yoxladığını deyib.

# Ürəyi dayanan insanın beyni işləyir

**Son vaxtlar elmi araşdırmalar ürəyi dayanan bir insanın ilk 3 dəqiqədə şüurunun açıq olduğunu müəyyənləşdirib. Southampton Universiteti alimlərinin gəldiyi nəticəyə görə, bu, 2 mindən artıq insan üzərində aparılan araşdırmadan sonra təsdiqlənib. Sözügedən araşdırmaya qədər alimlər bir insanın bütün beyin fəaliyyətinin ürək bədənə qan dövranını kəsdikdən 30 saniyə sonra dayandığına inanırdı. Amma Southampton Universitetində aparılan araşdırma bu nəticəyə qarşı çıxır. Elm dünyasında yeni cığır açan bu araşdırmanı həyata keçirən heyətə rəhbərlik edən doktor Sam Parnia yazıb ki, düşünülənlərin əksinə olaraq, ölüm bəlli bir anda meydana gəlməz. Ciddi bir xəstəlik ya da qəza nəticəsində ürək, ciyərlər və beyin öz funksiyasını itirməyə başlayır. Tibbi müdaxilələr sayəsində bu sürəc tərsinə çevrilir, ani bir şəkildə ürəyi dayanan bir insan xilas edilə bilir. Bu cəhdlər işə yaramadığı zaman isə ölüm meydana gəlir. Aralarında Avstraliya, ABŞ və İngiltərədən xsətələrin də olduğu, keçmişdə ürəyi dayanaraq həyatda qala bilmiş 2060 adamla aparılan söhbətlər nəticəsində məlum olub ki, xəstələrin 40 faizi ölü olduqları klinik olaraq açıqlandıqdan sonra beyin funksiyalarının davam etməsi ilə bağlı bəzi şeylər xatırlayırlar.**






## 20 il əvvəl udduğu alışqanı mədəsindən çıxardılar

**Çində həkimlər bir pasiyentin 20 il əvvəl udduğu alışqanı onun mədəsindən əməliyyat yolu ilə çıxarıblar. Əməliyyatla bağlı videoçəkiliş lenta.ru saytında yer alıb. Əməliyyat Çinin Çendu şəhərində baş tutub. Video kişinin orqanizminə yerləşdirilən xüsusi kamera vasitəsilə çəkilib. Onun köməyi ilə həkimlər pasiyentin udduğu alışqanı axtarıblar. Həkimlərin dediyinə görə, onlar alışqanı ikinci cəhddən sonra tapa biliblər. Əməliyyat isə cəmi 10 dəqiqə davam edib.**

Kişi həkimlərə deyib ki, əşyanı qəflətən udub. Amma buna görə həkimə müraciət etməyib. Çünki alışqanın varlığı onu heç bir formada narahat etmirdi. Amma son günlər mədəsindəki ağrılardan və qanaxmalardan şikayət etdiyi üçün həkimə müraciət edib.




**QOÇ** - Yeni əlaqələr qurmaq, nəzərdə tutulan planların icrası üçün sövdələşmələrdə iştirak etmək baxımından çox səmərəli gündür. Səhhətinizlə bağlı problemləriniz isə tədricən qaydasına düşəcək.

**BUĞA**- Mənfi enerjili Ay bürcünüzdə olsa da, nəzərdə tutduğunuz planlar müsbət həllinə yaxınlaşacaq. Dedi-qodudan uzaq olun. Məişət problemlərini deyil, mənəvi duyğularınızı qabardın.

**ƏKİZLƏR** - Ulduzların düzümü daha çox qarşılıqlı münasibətlər zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu yönümdə sevgi amilini daha çox qabardın. Axşamsa ehtiyatlı olun.

**XƏRÇƏNG** - Bir qədər mistik təqvimdir. Amma əminik ki, siz belə bir gündə falçı və ya cadugər yanına yox, müqəddəs ziyarətgahlara, ibadət yerlərinə baş çəkəcəksiniz. Pulla bağlı ehtiyatlı olun.

**ŞİR** - Kifayət qədər uğurlu gündür. Hətta havaların dəyişkənliyi də ovqatınıza mənfi təsir göstərməyəcək. Məhəbbət amilinə daha çox diqqət yetirin, işgüzar sövdələşmələri sürətləndirin.

**QIZ** - Həddindən ziyadə səmərəli bir gün yaşayacaqsınız. Qonşu və qohumlarla təmkinli və ədalətli davranın. Sevindirici xəbərlər, uğurlu hadisələr ovqatınızı yüksəldəcək.

**TƏRƏZİ** - Fəaliyyətlə bağlı uğurlarınız birə-beş qat arta bilər. Bunun üçün həmkarlarınızla əlaqələri dərinləşdirməli, yeni iş təkliflərinə başdansovdu yanaşmamalısınız. Risk etməkdən qorxmayın.

**ƏQRƏB** - Saat 15-ə qədər bütün vacib işlərinizi yekunlaşdırın. Çünki göstərilən müddətdə iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Sonrakı saatlarda neytrallıq nümayiş etdirin.

**OXATAN** - Astroloji enerji bütün gücü sevgiyə yönəltməyi tövsiyə edir. Çünki bu gün yeganə uğurunuz bu sahədə olacaq. Digər məsələlərdə isə qalmaqal gözlənilir. Vəzifəli adamlarla ehtiyatlı davranın.

**OĞLAQ** - Təxminən saat 13-dən etibarən ulduzlar qarşınızda bir neçə şans yaradacaq. Əlalxüsus da gələcək perspektivlər üçün bu fürsətin əhəmiyyəti böyük olacaq. O vaxta qədərsə gözüaçıq olun.

**SUTÖKƏN** - Səhhətinizlə bağlı problem yoxdursa, uğurlu gün hesab etmək olar. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etsəniz, planlarınızın əksəriyyəti reallaşacaq. Tanrını yaddan çıxarmayın.

**BALIQLAR** - Qarşınızda duran müəmmalı gündə Göy qübbəsi daha çox neytrallıq nümayiş etdirməyinizi tələb edir. Ciddi sövdələşmələri, riskli məsələləri (əlalxüsus pulla bağlı) təxirə salın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanı gəzmək üçün bakirəliyini satışa çıxardı



**Həqiqi kimliyi gizli tutulan və adı, sadəcə, Penelope olaraq açıqlanan 22 yaşındakı gənc qız dünyanı gəzə bilmək üçün bakirəkliyini auksionla satışa çıxardı. Parisdə bir ali məktəbdə təhsil alan Penolope 'puremodelsclub' adlı bir internet saytı vasitəsilə ən yüksək qiymətə bəkarətini auksionla satışa çıxardı. "Aldığım qərarla bağlı utanacağım heç nə yoxdur" deyən Penelope, sadəcə, ailəsinin bu auksiondan xəbər tutmasını istəmir. Gənc qız dünyanı gəzmək üçün təxminən 1 milyon avro yığmağı hədəfləyir. İndiyə qədər ona verilən ən yüksək təklif isə 220 min avrodur.**

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100